## Azərbaycan Ordusunun əsgəri həlak olub

### Hərbi qulluqçumuzu elektrik cərəyanı vurub



**Azərbaycan Ordusunun hərbi qulluqçusu əsgər Nəsirov Müşfiq Əjdər oğlu ehtiyatsızlıqdan elektrik cərəyanı vurması nəticəsində həlak olub.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildirilib.

Hadisə ilə bağlı araşdırma aparılır.

*Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçunun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.*

## Azərbaycana qış gəldi



**Dünən saat 19:59-da Azərbaycana qış gəlib.**

Bu barədə Trend-ə Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasından məlumat verilib.

Bildirilib ki, bu zaman Yerin fırlanma oxu Günəş istiqaməti ilə ən böyük bucaq əmələ gətirir və ya Günəş üfüqdən minimum hündürlükdə (26?.2) olur. Bu gün ən qısa gündüz və ən uzun gecə müşahidə olunur. Gündüzün uzunluğu 9 saat 17 dəqiqə 22 saniyə, gecənin uzunluğu isə 14 saat 42 dəqiqə 38 saniyə olacaq.


№ 234 (5516), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 22 dekabr 2021-ci il (çərşənbə)




# Bakıya qar yağacaq

### Rayon yolları buz bağlayacaq

**23-24 dekabrda Abşeron yarımadası və Bakıda sulu qar, qar gözlənilir.**

Bunu Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva bildirib.

Onun sözlərinə görə, son zamanlar sinoptik-meteoroloqlar konkret region üçün səciyyəvi olmayan hava kütlələrinin nadir, bəlkə də bu vaxtlaradək görünməyən, konfiqurasiya və hərəkət istiqamətləri ilə qarşılaşır. Belə proseslərdən biri dekabrın 23-24-də gözlənilir. "Burada qeyri-adilik nədədir? Adətən qışda soyuq hava kütlələri ölkə ərazisinə şimal-qərb, şimal və ya şimal-şərqdən, yəni Skandinaviya və ya Yeni Torpaq ərazilərindən daxil olaraq havanın xeyli soyumasına və qar yağmasına səbəb olur.

(səh.2)



## Prezident İlham Əliyev Gürcüstanın müdafiə nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladzeni qəbul edib.**

Görüşdə Azərbaycan-Gürcüstan ikitərəfli dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən hərbi əməkdaşlıq sahəsində inkişafından məmnunluq bildirildi.

Gürcüstanın müdafiə nazirinin ölkəmizə səfərinin əlaqələrin genişləndirilməsi işinə töhfə verəcəyinə ümidvarlıq ifadə olundu.

## Koronavirus pandemiyası gələn il başa çata bilər



**Koronavirus pandemiyası gələn il başa çata bilər. Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəhbəri Tedros Adanom Qebreyesus keçirdiyi mətbuat konfransında deyib.**

Onun sözlərinə görə, bunun üçün ilin ortalarına qədər əhalinin 70 faizi COVID-19-a qarşı peyvənd olunmalıdır.

"Pandemiyanın gələn il bitməsini istəyiriksə, gələn ilin ortalarına qədər bərabərsizliyə son qoymalı və hər bir ölkə əhalisinin 70%-ni peyvənd etməliyik", - deyə Qebreyesus vurğulayıb.

# Putin və Makron Qarabağdan danışdılar

### Prezidentlər vəziyyətin sabitləşməsindən məmnunluq ifadə ediblər



**Rusiya Prezidenti Vladimir Putin və Fransa Prezidenti Emmanuel Makron arasında telefon danışığı olub.**

Kremlin mətbuat xidmətinin yaydığı məlumata görə, telefon danışığı zamanı Rusiya və Fransa liderləri Avropa qitəsində sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi məsələlərinin müzakirəsini davam etdiriblər.

Fikir mübadiləsi zamanı Qarabağda vəziyyətin sabitləşməsi, regionda dinc həyatın bərqərar olması, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası istiqamətində göstərilən səylərdən məmnunluq ifadə olunub.

(səh.4)



## ABŞ prezidentinin nüfuzu düşür

### Baydenin işindən narazı olanların sayı artıb

**Hazırkı prezident Co Baydenin işindən narazı olan ABŞ vətəndaşlarının sayı 55%-ə yüksəlib.**

Trend xəbər verir ki, bu Marist Institute təşkilatının apardığı sorğunun nəticələrində əks olunub.

Respondentlərin 44%-i Baydenin fəaliyyətini "qəti şəkildə bəyənməyib". Noyabrın sonunda belə vətəndaşların 50% təşkil edirdi. Amerika dövlət başçısının işindən razı qalanların sayı 1% azalaraq 42-dən 41%-ə düşüb. Sorğu dekabrın 11-dən 13-dək keçirilib və 18 yaşdan yuxarı 1400 ABŞ vətəndaşı iştirak edib.

# Rusiyanın "humanitar" yardımı bitmir

### Laçın dəhlizinə mütləq post qoyulmalıdır

**Rusiya hərbi karvanı Laçın dəhlizindən keçməklə, Qarabağda etnik ermənilərə növbəti dəfə "humanitar" yardım gətirib. Rusiya bu cür "humanitar" yardımları Ukraynanın Donbass bölgəsinə də edir. Bir müddət sonra yardımların ərzaq deyil, silah və sursatlardan ibarət olduğu ortaya çıxır.**

Qarabağda silahlı erməni dəstələrinin sayının 15 minə yaxın olduğu və onların silah təchizatının məhz Laçın dəhlizi vasitəsi ilə həyata keçirildiyi məlumdur. 10 noyabr üçtərəfli bəyanatına görə silahlı erməni birləşmələri ərazilərimizi tərk etməliydi.

(səh.4)



## 662 yeni yoluxma faktı qeydə alınıb

### 14 nəfər vəfat edib, 1 452 nəfər müalicə olunaraq sağalıb



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 662 yeni yoluxma faktı qeydə alınıb, 1 452 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 14 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 611 557 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 588 790 nəfər müalicə olunaraq sağalıb, 8 222 nəfər vəfat edib, aktiv xəstə sayı 14 545 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 157, ötən müddət ərzində isə ümumilikdə 5 767 538 test aparılıb.*

## Təbrizdə beşmərtəbəli bina çöküb

### Hadisə zamanı 12 nəfər xəsarət alıb



**Təbriz şəhərində yaşayış binası çöküb.**

APA-nın Tehran bürosunun məlumatına görə, hadisə Təbrizin mərkəzində 5 mərtəbəli binada baş verib.

Binanın çökməsi nəticəsində 12 nəfər xəsarət alıb. Dağıntılar altında insanların qaldığı bildirilir. Hadisə yerində axtarış-xilasetmə işləri davam edir.



## İrəvanın əlində heç nə qalmadı

### Hərbçilərimizin vaxtında geri alınması düzgün qərar idi

(səh.3)

## "Bu gün ölkədə 500 direktor vəzifəsi boşdur"

### Emin Əmrullayev: "Problem bacarıq və səriştə ilə əlaqəlidir"



(səh.4)

# Türkiyə ilə enerji sahəsində əməkdaşlıq gücləndiriləcək

## Prezident İlham Əliyev Türkiyənin energetika və təbii sərvətlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Fatih Dönməzi qəbul edib.**

Nazir Fatih Dönməz Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev Türkiyənin dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə daim inkişaf etdiyi vurğulandı, enerji sahəsində əməkdaşlığın ötən illərdə olduğu kimi davam etdirilməsi məmnunluqla qeyd edildi.

Söhbət zamanı Azərbaycan və Türkiyənin birgə həyata keçirdikləri qlobal enerji layihələrinin əhəmiyyəti qeyd olundu, nazir Fatih Dönməzin səfərinin enerji sahəsində əməkdaşlığın inkişaf perspektivlərinin müzakirəsi üçün yaxşı imkan olduğu bildirildi.

Görüşdə Bakıda keçiriləcək Azərbaycan-Türkiyə 1-ci Enerji Forumunun ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığın genişləndirilməsi, yeni istiqamətlərin müəyyənləşdirilməsi, konkret layihələrin müzakirəsi üçün yeni bir platforma olduğu bildirildi.



# İqtisadi Zonaların İnkişafı Agentliyini 4 dövlət qurumu idarə edəcək

**İqtisadi Zonaların İnkişafı Agentliyinin idarə edilməsi qaydası müəyyən olunub.**

**Bu, Prezident İlham Əliyevin Fərmanı ilə təsdiq edilən "İqtisadi Zonaların İnkişafı Agentliyinin Nizamnaməsi"ndə əksini tapıb.**

Nizamnaməyə əsasən, agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

Agentliyin idarəetmə orqanları Müşahidə Şurası və İdarə Heyətidir.

Agentliyin Müşahidə Şurası Agentliyə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

Şuranın 4 üzvü İqtisadiyyat Nazirliyinin, 3 üzvü Kənd Təsərrüfatı Nazirliyinin, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin (hər qurumdan bir nəfər olmaqla) nümayəndələrindən ibarət olmaqla 7 üzvü var.

Şuranın üzvlərini təmsil etdikləri orqanın (qurumun) rəhbəri təyin və azad edir. Şuranın sədri və sədrinin müavini iqtisadiyyat naziri tərəfindən Şura üzvləri sırasından 5 il müddətinə vəzifəyə təyin və vəzifədən azad edilirlər.

Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.



## Zelenski Putinlə görüşə hazır olduğunu bəyan edib

**Ukrayna Prezidenti Volodimir Zelenski bildirib ki, hazırda Rusiya Prezidenti Vladimir Putinlə əlaqəsi yoxdur. Bununla belə, rəsmi Kiyev Moskva ilə istənilən formatda görüşə hazırdır.**

APA-nın "Ria Novosti"yə istinadla xəbərinə görə, V. Zelenski bildirib: "Hazırda Putinlə əlaqəmiz yoxdur. Bir-birimizə zəng etmirik. Lakin açıq deyirəm ki, dialoqa hazırıq. İstəyirik ki, Rusiya tərəfi də hazır olduğunu bildirsin. Biz Rusiya Federasiyası ilə istənilən formatda, istənilən partnyorumuzla görüşə hazırıq, bundan qorxmuruq. Biz həm də, istənilən formatda uzbəüz dialoqa hazırıq".

## Tbilisidə aksiya keçirilib

### Saakaşvilinin azadlığa buraxılması tələb olunur



**Gürcüstanda sabiq Prezident Mixeil Saakaşvilinin azadlığa buraxılması tələbi ilə növbəti aksiya keçirilib.**

APA-nın yerli bürosu xəbər verir ki, müxalif "Vahid Milli Hərəkat"ın tərəfdarları əvvəlcə "Respublika" meydanından parlament binasınadək yürüş ediblər.

Aksiya səbəbi ilə mərkəzi Rustaveli prospektində avtomobillərin hərəkəti məhdudlaşdırılıb. İştirakçılar arasında paytaxt sakinləri ilə yanaşı çox sayda bölgələrdən gələn müxalifət tərəfdarlarının da olduğu bildirilir.

*Xatırladaq ki, Gürcüstanın üçüncü Prezidenti Mixeil Saakaşvili oktyabrın 1-də Tbilisidə qaldığı mənzildə həbs edilib.*

# Əhalinin güzəranı diqqətdədir

## Növbəti ilin büdcəsi də sosial yönümlüdür

**Prezident İlham Əliyevin "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına əsasən yeni islahatlar mərhələsinə başlanılıb.**

Bunun nəticəsi olaraq əməkhaqlarında, müavinət və təqaüdlərdə artımlar 2022-ci ilin əvvəlindən tətbiq olunacaq. 2,1 milyondan çox şəxsi əhatə edən yeni artımlar üçün illik əlavə 1,5 milyard manat vəsait nəzərdə tutulub. İslahatların əhatə etdiyi vətəndaşların sayı və maliyyə tutumu deməyə əsas verir ki, elan olunan yeni sosial paket 2022-ci ildə vətəndaşların sosial rifahına müsbət təsir edəcək. Son 3 ildə artırılan sosial ödənişlərə diqqət etsək görərik ki, bu artımların böyük əksəriyyətində nisbət hər hansı faizlə deyil, dəfələrlə artımdan bəhs edilir. Məsələn, əlilliyi olan şəxslərin müavinətini 2019-cü illə müqayisə etsək, yeni fərmanla bu fərq 2,2- 2,5 dəfə artırılıb. Beləliklə, son üç ildə aparılan islahatlar nəticəsində əlilliyə görə müavinətlər I dərəcə üzrə 2,7 dəfə, II dərəcə üzrə 3 dəfə, III dərəcə üzrə 2,3 dəfə artırılıb. Rəqəmlər özü-özlüyündə dövlətin sosial siyasətini əks etdirməklə bərabər, bu siyasətin davamlı inkişafa mühüm töhfəsini göstərir. Bu mənada 2022-ci il üçün elan edilən sosial paket maliyyə tutumu və əhatə dairəsi baxımından mühüm əhəmiyyət kəsb edir. Həssas sosial qrupdan olan 732 min vətəndaşın sosial rifahına yönələn sosial paketin mühüm əhəmiyyətindən biri ondan ibarədir ki, hazırda böyük sosial infrastruktur layihələrinin icra olunduğu və Qarabağa qayıdışı həddələyən proqramların icrası dövrünə təsadüf edir. Bu o deməkdir ki, Prezident İlham Əliyev bütün sahələri diqqətdə saxlayır. Həlli vacib olan məsələlərlə yanaşı, davamlı sosial təminat məsələsinə də xüsusi önəm verir. Bu baxımdan Prezidentin apardığı uğurlu siyasətin tərkib hissəsi hər zaman Azərbaycan vətəndaşının rifahının yaxşılaşdırılması, onun həyat tərzinin artırılması məsələsi dayanır. Bu baxımdan xüsusi olaraq qeyd etmək vacibdir ki, növbəti ilin büdcəsi sosialyönümlüdür. 2022-ci ilin dövlət büdcəsinin demək olar ki, yarısı - 46.4 faizi sosial xərclərə ayrılıb.



**"Sərəncamlar sübut edir ki, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi prioritetdir"**

**Millət vəkili Cavid Osmanov da deyib ki, dövlət başçısı tərəfindən verilən sonuncu sərəncamlar sosial sahədə aparılan davamlı siyasətin bariz nümunəsi və mühüm göstəricisidir.** Deputatın sözlərinə görə, ölkə rəhbəri tərəfindən vətəndaşlara növbəti dəfə inqilabi sosial paketlər təqdim olunub: "Prezident cənab İlham Əliyevin sərəncamlarına əsasən, minimum əmək haqqının məbləği, maaşlar, pensiyalar və təqaüdlər artırılıb. Bu artımlar ölkədə 2 milyondan çox vətəndaşı əhatə edir və sərəncamların icrası hər il 1.5 milyard vəsait tələb edir. Bu qərar sübut edir ki, Prezidentin yürütdüyü siyasətin mərkəzində vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi dayanır. 2 ilə yaxındır ki, davam edən pandemiya dünya dövlətlərinin, eləcə də Azərbaycanın iqtisadiyyatına mənfi təsir göstərib. Həmçinin Azərbaycan ötən il 44 günlük Vətən müharibəsi ilə ərazilərini işğaldan azad edib. Bir ildir işğaldan azad edilmiş ərazilərdə böyük yenidənqurma və bərpa işləri aparılır. Bunların fonunda belə sərəncamların verilməsi, vətəndaşların sosial rifahının yaxşılaşdırılmasına istiqamətlənmiş belə sənədlərin imzalanması Azərbaycanın güclü və qüdrətli olduğunun bariz nümunəsidir".

Parlament üzvü qeyd edib ki, pandemiya dövründə də iki yoldan birincisi iqtisadiyyatın bərpası, ikincisi isə vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması idi: "Aparıcı ölkələr iqtisadiyyatın xilas olması istiqamətində addımlar atsalar da, Azərbaycan sosial siyasət yürüdən dövlət kimi birmənalı olaraq vətəndaşının qorunması, sağlamlığı və onun sosial müdafiəsinin gücləndirilməsi istiqamətində addımlar atdı. Ümumiyyətlə, ölkədə aparılan sosial islahatlar 2018-ci ildən etibarən intensiv xarakter alıb".

**İsmayıl**



## Kəlbəcər və Qubadlıya yeni hərbi prokurorlar təyin olunub

**Kəlbəcər və Qubadlı rayonlarına yeni hərbi prokurorlar təyin olunub.**

Baş prokuror Kamran Əliyevin müvafiq əmrləri ilə Mahir Bayramov Kəlbəcər hərbi prokuroru, Elşən Mürsəlov isə Qubadlı hərbi prokuroru təyin edilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən məlumatı təsdiq ediblər.

*Qeyd edək ki, Prezident İlham Əliyevin "İşğaldan azad olunmuş ərazilərdə yeni hərbi prokurorluqların yaradılması haqqında" 1 aprel 2021-ci il tarixli Sərəncamına əsasən Qubadlı və Kəlbəcər Hərbi Prokurorluqları yaradıldıqdan sonra Baş prokuror Kamran Əliyevin müvafiq əmrləri ilə qeyd olunan hərbi prokurorluqların struktur və ştat tərkibi müəyyən edilib.*

## Azad edilən ərazilərdə Zəfər muzeyləri yaradılır



**Həm Bakıda, həm də işğaldan azad edilən ərazilərdə Zəfər muzeyləri açılır və bununla bağlı işlər davam etdirilir.**

Bunu jurnalistlərə açıqlamasında mədəniyyət naziri Anar Kərimov deyib.

O bildirib ki, bu məsələ ilə bağlı həm yerli, həm də xarici ekspertlər cəlb edilib.

Nazir qeyd edib ki, muzeyin konsepsiyası və içindəki məzmunu ilə bağlı işlərə kompleks şəkildə baxılır: "Bunların hamısının həlli üçün işlər aparılır", - A.Kərimov deyib.

## Gələn ilin sonuna qədər...

### Bakıda elektriklə işləyən avtobuslar istifadəyə veriləcək

**Gələn ilin sonuna qədər Bakıda elektriklə işləyən avtobuslar istifadəyə veriləcək.**

Bu barədə Bakı Nəqliyyat Agentliyindən məlumat verilib.

Məlumatda bildirilir ki, BMT-nin dayanıqlı inkişaf məqsədlərinin 11-ci bəndində ehtiva edilən "Şəhər və yaşayış məntəqələrinin açıqlığını, təhlükəsizliyini, davamlılığını və ekoloji dayanıqlılığını təmin etmək" üçün BNA öz töhfəsini verməkdədir. "Ötən 6 ildə avtobus parkının



34%-i ekoloji təmiz, "Avro6" standartlı, CNG mühərrikli avtobuslara əvəzlənib. Hədəf 2022-ci ilin sonunadək bu rəqəmi 75%-ə çatdırmaq və elektrikli avtobusları istismara verməkdir.

Dizellə işləyən avtobuslarla müqayisədə CNG ilə işləyən avtobuslardan havaya atılan karbon qazı 30%, azot dioksid isə 32% daha azdır. 2015-ci illə müqayisədə 2019-cu ildə avtomobil nəqliyyatından atmosfer havasına atılan çirkləndirici maddələrin həcmi 3,3% (32,5 ton), adambaşına düşən göstərici isə 5,8%, yaxud 5,9 kq azalıb,"-məlumatda bildirilib.

# Vüqar Səfərliyə hökm oxundu

## Evi və bank hesabı müsadirə edildi



**Bakı Ağır Cinayətlər Məhkəməsində ləğv edilmiş Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) sabiq icraçı direktoru Vüqar Səfərli, müvafiq vəzifələrdə çalışmış Bünyamin İsmayılov, Ədalət Vəliyev, Nadir Məmmədov, Bəxtiyar Fətullayev, Təmkin Xəlilov, Telman Tahirov, Valeh Orucov, Təhminə Yaqubova, Şahin İbrahimov və Namiq Hacıyevin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

Hakim Azər Paşayevin sədrliyi ilə keçirilən prosesdə son söz deyən təqsirləndirilən şəxs Vüqar Səfərli özünü ittihamlarla təqsirli bilməyib və məhkəmədən bəraət istəyib.

Digər təqsirləndirilən Nadir Məmmədov da günahsız olduğunu deyib.

Məhkəmə hökm qəbul etmək üçün müşavirəyə yollanıb.

Müşavirədən sonra təqsirləndirilən şəxslərə hökm oxunub. Məhkəmənin hökmü ilə Vüqar Səfərli 10 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Digər hökmə əsasən, cinayət işi üzrə təqsirləndirilən Nadir Məmmədova isə 6 il həbs cəzası verilib. Məhkəmə digər təqsirləndirilən şəxslər- Bünyamin İsmayılov, Ədalət Vəliyev, Namiq Hacıyev, Bəxtiyar Fətullayev, Təmkin Xəlilov, Telman Tahirov, Valeh Orucov, Şahin İbrahimov və Təhminə Yaqubovaya sınaq müddəti seçilməklə şərti cəza verib.

Bütün təqsirləndirilən şəxslərin üzərinə müəyyən məbləği ödəmək öhdəliyi qoyulub.

Təqsirləndirilən şəxslərin həmin məbləği Medianın İnkişafı Agentliyinə ödəmələridir.

Hökmdə o da qeyd olunub ki, Vüqar Səfərlinin Bakının Xətai rayonunda, İsmayıllı rayonunda yerləşən fərdi yaşayış evi və bank hesabı müsadirə edilib. Bundan başqa, Nadir Məmmədovun torpaq sahələri, Ədalət Vəliyevin mətbuat prospektində yerləşən çoxmərtəbəli yaşayış binası və digər daşınmaz əmlakları da müsadirə edilib.



**23-24 dekabrda Abşeron yarımadası və Bakıda sulu qar, qar gözlənilir. Bunu Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva bildirib.**

Onun sözlərinə görə, son zamanlar sinoptik-meteoroloqlar konkret region üçün səciyyəvi olmayan hava kütlələrinin nadir, bəlkə də bu

# Bakıya qar yağacaq

## Rayon yolları buz bağlayacaq

vaxtlaradək görünməyən, kionfiqurasiya və hərəkət istiqamətləri ilə qarşılaşır. Belə proseslərdən biri dekabrın 23-24-də gözlənilir.

"Burada qeyri-adilik nədədir? Adətən qışda soyuq hava kütlələri ölkə ərazisinə şimal-qərb, şimal və ya şimal-şərqdən, yəni Skandinaviya və ya Yeni Torpaq ərazilərindən daxil olaraq havanın xeyli soyumasına və qar yağmasına səbəb olur.

Bu dəfə, Şərqi Sibir ərazisində temperaturun normadan 17 dərəcəyədək enməsinə səbəb olan anomal soyuq antisiklonun qolu, hava kütlələrinin adətən qərbdən şərqə axınının əksinə olaraq, şərqdən qərbə uzanaraq ayın 23-24-də bizim regiona çatacaq", - U.Tağıyeva deyib.

Xidmət rəsmisi qarı seyr etmək arzusunda olan şəhər əhalisinə sinoptiklərdən xoş xəbər olduğunu bildirib.

O qeyd edib ki, Lakin temperatur rejiminin 8-10 dərəcəyədək enməsinə baxmayaraq, havanın temperaturunun müsbət 3 dərəcəyə yaxın olması davamlı qar örtüyünün yaranmasına imkan verməyəcək.

"Ölkənin dağlıq və dağətəyi rayonlarının əhalisi isə intensiv, bəzi yerlərdə isə güclü qarın yağması nəticəsində əmələ gələn qar örtüyünü müşahidə edə biləcək" - nazirlik rəsmisi bildirib.

U.Tağıyeva dağlıq və dağətəyi rayonlarda yolların buz bağlaması ilə əlaqədar əhaliyə daha ehtiyatlı olmağı tövsiyə edib.

# Dinc eranın başlanmasını söyləmək hələ çox erkəndir

## Paşinyan ona verilən şansı dəyərləndirəcəyini zaman göstərəcək



İsmayıl Qocayev

**”Azərbaycan Prezidenti İlham Əliyev ilə noyabrın 26-da Soçidə və dekabrın 14-də Brüsseldə keçirilən görüşlərdən sonra Ermənistan və region üçün dinc eranın inkişafına dair imkanlar yaranıb”.**

Bu barədə Ermənistanın Baş naziri Nikol Paşinyan Milli Təhlükəsizlik Xidmətinin əməkdaşları ilə görüşdə bildirib. Baş nazir qeyd edib ki, Soçi və Brüssel görüşündən sonra İrəvan və Bakı addım-addım yeni mərhələyə doğru irəliləyir.

Paşinyan bildirib ki, Ermənistan hökuməti bu istiqamətdə irəliləmək üçün bütün imkanlardan istifadə edəcək.

**Paşinyanın son günlər, xüsusən Soçi və Brüssel görüşlərindən sonra səsləndirdiyi müsbət mesajları ”Şərq”ə təhlil edən Bakı Politoloqlar Klubunun rəhbəri, siyasi elmlər üzrə fəlsəfə doktoru Zaur Məmmədov deyib ki, Ermənistan rəhbərliyinin tamamilə dəyişdiyini və Paşinyanın ağıllandığını iddia etmək hələ çox tezdir. Analitik bildirib ki, İrəvan hökumətinin ardıcıl rasional addımlar atacağı inandırıcı deyil:** ”Nə qədər ki, regionda Ermənistan adlı dövlət var, Azərbaycana və bölgəyə təhdidlər qalacaq. Rəsmi Bakı hər şeyə rəğmən, post-müharibə dövründə qarşı tərəfə dəfələrlə humanist addımlarla cavab verib. Ermənistana çağırış edərək sülhə və sabitliyə səsləyib. Yaxşı başa düşürük ki, regionda sabitlik və ziddiyyətlərin aradan qaldırılması üçün mütləq şəkildə iqtisadi və humanitar sahədə əməkdaşlığa ehtiyac var. Məhz bu baxımdan digər qonşularımızla yanaşı, Ermənistanı da yeni geosiyasi və geoiqtisadi layihələrdə iştiraka dəvət edirik. İrəvanla yeni münasibətlərin əsasını qoymağa çalışırıq və bu istiqamətdə mühüm addımlar atırıq. Brüssel görüşündə əldə edilən şifahi razılaşmaların yaxın vaxtlarda Moskvada yazılı və hüquqi şəkildə təsdiqlənməsinin şahidi ola bilərik”.

*Z.Məmmədov vurğulayıb ki, Paşinyan həm daxili auditoriyanı, həm hökumət nümayəndələrini, həm də siyasi opponentlərini Azərbaycanla sülhə, regional əməkdaşlığa hazırlamalıdır: ”Ermənistanda bu işlərə start verildiyi məlumdur. Paşinyanın açıqlamaları buna dəlalət edir. Lakin yenə deyirəm, bu, son yox, hələ başlanğıcdır. Hər halda Ermənistan üçün böyük şans və fürsət yaranıb. Ermənilərin bu şansı necə dəyərləndirəcəyini isə zaman göstərəcək”.*

# İrəvanın əlində heç nə qalmadı

## Hərbçilərimizin vaxtında geri alınması düzgün qərar idi

**Xəbər verdiyimiz kimi dekabrın 18-də gündüz saatlarında Laçın rayonunun dövlət sərhədi istiqamətində Azərbaycan Ordusunun iki hərbi qulluqçusu - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Teymur Hüseynov və əsgər Murad Mustafayev əlverişsiz hava şəraitində yolu azaraq qarşı tərəfə keçiblər.**

Müdafiə Nazirliyinin məlumatına görə, qarşı tərəflə aparılmış danışıqlar nəticəsində hərbi qulluqçuların geri qaytarılması təmin olunub. Hərbçilərimizin geri alınması prosesində Rusiya sülhməramlıları da iştirak ediblər. Bir sıra ekspertlər hərbçilərimizin saxlanıldığını əks etdirən videoda diqqətçəkən məqama toxunublar. Bildiriblər ki, həmin an əsgər Murad Mustafayevin qara maskada olması ermənilərin qara niyyətindən xəbər verir. İddiaya görə, hərbçilərimizin qaytarılması prosesi uzansaydı, bu istiqamətdə təbliğat aparacaqları gözlənilən idi.

“...Əks təqdirdə, Ermənistan bundan təbliğat üçün istifadə edəcəkdi”

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə açıqlamasında deyib ki, Ermənistan müharibədən sonra Azərbaycan əsgərinin yolunu azaraq ermənilər tərəfə keçməsini və saxlanılmasını özləri üçün ”qələbə” hesab edirlər.** Ekspert xatırladıb ki, Qarabağda anti-terror əməliyyatı, o cümlədən, sərhəd təxribatları zamanı xeyli sayda erməni hərbçi saxlanılıb. Ancaq sonradan danışıqlar zamanı müəyyən hissəsi Ermənistana qaytarılıb: ”Ermənilərin hissə geri verilməsi müharibədə məğlub olan Ermənistana ikinci böyük zərbə sayılırdı. Erməni ictimaiyyətində narazılığın səviyyəsi artırdı. Bu baxımdan İrəvan üçün bir azərbaycanlı əsgərin saxlanılması və hansısa erməni ilə dəyişdirilməsi ”güc nümayişi” baxımından çox əhəmiyyətlidir. Fikrimcə, saxlanılan iki hərbçimiz vaxtında alınmasaydı, Ermənistan bundan təbliğat üçün istifadə edəcəkdi. Hərbçilərimizin saxlanıldığının əks olunduğu videokadrlarda əsgərimizin üzündə maskanın olması bu kontekstdə diqqət çəkir. Digər hərbçimizin üzündə isə maska yox idi. İstisna deyil ki, bunun belə olmasını ”Azərbaycanın xüsusi təyinatlı əsgərini tutmuşuq” görüntüsünü yaratmaq məqsədilə əli silahlı ermənilər istəyib. Çünki müharibədə və sonrasında erməni ordusu üzərində Xüsusi Təyinatlı Qüvvələrin təsiri çox böyük oldu. Hətta İrəvana qaytarılan erməni hərbçilərin biri ifadəsi zamanı bildirdi ki, 60-dan çox erməni hərbçisini cəmi 7 nəfər XTQ qulluqçusu zərərsizləşdirib. Ermənistanın hərbi rəhbərliyi erməni hərbçilər üzərindəki Azərbaycan XTQ-sinin xofunu götürməkdə maraqlıdır. Bu baxımdan hərbçilərimizin vaxtında geri alınması düzgün qərar idi. Azərbaycanın humanist addımlarına baxmayaraq, Ermənistanın onlardan təbliğat maşını üçün istifadə edə biləcəyi mümkün idi”.



**A.Nərimanlı vurğulayıb ki, Ermənistanda ”niyə saxlanılan azərbaycanlı hərbçilər Bakıda saxlanılan erməni hərbçilərlə dəyişdirilmədi” məsələsi ətrafında müzakirələr aparılır:** ”Ermənistanın Bakıda saxlanılan erməni hərbçiləri qaytarmaq üçün müəyyən təxribatlara əl atması mümkündür. Nəzərə alaq ki, Azərbaycan mina xəritələrinin hamısını alıb və mübadilə üçün İrəvanın əlində heç nə yoxdur. Amma Paşinyan hakimiyyəti üçün erməni hərbçilərin qaytarılması həm də daxili ictimai rəy üçün vacibdir. Hesab edirəm ki, Azərbaycan erməni hərbçilərin növbəti mübadiləsində siyasi baxımdan daha böyük əhəmiyyəti olan şərtlər irəli sürə bilər. İrəvan da məhz belə şərtlərlə üzləşməmək üçün hərbçilərimizin saxlanılması kimi təxribatlara əl ata bilər”.

**İsmayıl Qocayev**

# Ankaraya yollar görünür

## Gürcüstanı “Altılıq” platformasında ən çox Ermənistan arzulayır



“Paşinyanın Tbilisi səfərində daha çox bu məsələ müzakirə olunub”

**Məlum olduğu kimi Gürcüstan Moskvada ”3+3” formatında keçirilən regional platformanın ilk toplantısında iştirak etmədi.**

Görüşdən bir neçə gün öncə Gürcüstan Xarici İşlər Nazirliyi İrakli Qaribaşvili ölkəsinin platformasının ilk iclasında iştirak etməyəcəyini bildirmişdi. Aydın məsələdir ki, rəsmi Tbilisi Rusiya faktoruna görə ”3+3” platformasının ilk görüşündən imtina edib. Bununla belə ekspertlər Gürcüstanın büsbütün ”Altılıq” platformasından üz döndərəcəyini istisna etmirlər. Xəbər verildiyi kimi ”3+3 platforması”nın növbəti iclası Türkiyənin paytaxtı Ankara şəhərində keçiriləcək. Türkiyəli rəsmilər indidən çalışır ki, Ankaradakı görüşdə Gürcüstan da iştirak etsin.

**Siyasi şərhçi Turan Rzayev ”Şərq”ə bildirib ki, Abxaziya və Cənubi Osetiya problemləri səbəbindən rəsmi Tbilisinin ”3+3 platforması” ilə bağlı qərar verməsi çətindir. Lakin ekspert bu formatın təşəbbüskarının Azərbaycan və Türkiyə prezidentləri olmasına diqqət çəkib:** ”Gürcüstana təklif Ankara və Bakıdan gəlib. İndiki halda həm Türkiyə, həm də Azərbaycan Gürcüstanın ”3+3” formatında iştirakını arzulayır. Bu, Moskvada baş tutmasa belə, Ankarada baş tutmalıdır. Türkiyə və Azərbaycan kimi Ermənistan da Gürcüstanın ”3+3 platforması”nda iştirak etməsini istəyir. Çünki İrəvan buna ehtiyac duyur. Türkiyə ilə münasibətlərin bərpası və Qərbə inteqrasiya baxımından bu platforma İrəvan üçün əvəzolunmaz fürsətdir. Rusiya və İranın platformanı dəstəkləməsi Ermənistanı istəklərinə bir addım da yaxınlaşdırır. Gürcüstananın Moskvada ”3+3” formatında keçirilən regional platformanın ilk toplantısında iştirak etməməsi İrəvanı çətin vəziyyətdə qoydu. Ermənistan Baş naziri Nikol Paşinyan dekabrın 20-də Gürcüstana işgüzar səfər etdi. Paşinyan İrakli Qaribaşvili ilə əvvəlcə təkbətək görüşüb. Daha sonra liderlərin iştirakı ilə hökumətlərarası iqtisadi komissiyanın iclası keçirilib”.

**T.Rzayev qeyd edib ki, Paşinyan-Qaribaşvili görüşü hər nə qədər işgüzar xarakterli olsa da, qapalı qapılar ardında Gürcüstanın ”3+3 platforması”na qayıtması istiqamətində müzakirələr gedib:** ”Rəsmi İrəvan Gürcüstanın platformadan kənarda qalmasını istəmir. Onsuz da hazırda Paşinyana Türkiyə ilə münasibətləri bərpa etdiyi üçün kifayət qədər tənqidlər səslənir. Qərbə inteqrasiya edən Gürcüstanın platformada iştirak etməsi Paşinyana təzyiqləri azalda bilər. Paşinyan bu sayədə müxalifətə deyəcək ki, Ermənistan bölgə ölkələrinin hamısının iştirak etdiyi platformadan kənarda qala bilməzdi”.

**İsmayıl Qocayev**





# Putin və Makron Qarabağdan danışdılar

## Prezidentlər vəziyyətin sabitləşməsindən məmnunluq ifadə ediblər

**Rusiya Prezidenti Vladimir Putin və Fransa Prezidenti Emmanuel Makron arasında telefon danışığı olub.**

Kremlin mətbuat xidmətinin yaydığı məlumata görə, telefon danışığı zamanı Rusiya və Fransa liderləri Avropa qitəsində sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi məsələlərinin müzakirəsini davam etdiriblər.

Fikir mübadiləsi zamanı Qarabağda vəziyyətin sabitləşməsi, regionda dinc həyatın bərqərar olması, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası istiqamətində göstərilən səylərdən məmnunluq ifadə olunub.

Bildirilib ki, Rusiya və Fransa bu məsələlər üzrə fəaliyyət göstərir və gələcəkdə də sinxron fəaliyyət göstərmək niyyətindədir.

Xatırladaq ki, bundan əvvəl Rusiya və Fransa prezidentləri arasında telefon danışığı noyabrın 11-də olub. Makronun təşəbbüsü ilə baş tutan söhbət zamanı Qarabağ məsələsi müzakirə edilmişdi.

Dünən Rusiyanın Prezidenti Vladimir Putin Müdafiə Nazirliyinin geniştərkibli kollegiya iclasında çıxışı zamanı deyib ki, Rusiya sülhməramlılarının mövcudluğu sayəsində Qarabağda humanitar vəziyyət yaxşılaşıb.

”Bir ildən artıqdır ki, bizim sülhməramlılarımız Qarabağda sabitliyi dəstəkləməyə yardım edirlər. Bir çox hallarda onların səyləri sayəsində humanitar vəziyyət yaxşılaşıb, bir sıra rayonlarda minatəmizləmə işləri həyata keçirilib, sosial infrastruktur obyektləri bərpa olunur, tarixi və mədəni abidələr saxlanılıb”, - deyə Putin qeyd edib.

Rusiya lideri sülhməramlı tapşırıqları yerinə yetirən şəxsi heyətə peşəkarlığına, dözümlülüyünə və möhkəmliyinə görə təşəkkür edib.

*Xatırladaq ki, 10.10.2020-ci ildə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Qarabağ üzrə üçtərəfli bəyanatı imzalanıb. Bəyanata əsasən, Dağlıq Qarabağ münaqişə zonasında 2020-ci il noyabrın 10-u saat 00:00-dan etibarən bütün hərbi əməliyyatların dayandırılması və tam atəşkəs barədə razılaşıblar. Bəyanata görə, təmas xətti və Laçın dəhlizi boyunca Rusiya Federasiyasının sülhməramlı kontingenti yerləşdirilir. Paralel olaraq Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərdən çıxarılmalıdır.*

# ABŞ daha böyük planlara hazırlaşır

## Pentaqonun gizli sənədlərinin ortaya çıxması daxili auditoriyaya yönəlik gedişlərdir



İsmayıl Qocayev

**”New York Times” qəzeti Pentaqonun gizli sənədlərini ələ keçirib. Məlum olub ki, ABŞ bir çox vətəndaş qırğınlarının üstünü örtməyə çalışıb. İfşa olunan gizli məlumatlarda ordunun və hərbi vasitələrin səbəb olduğu fəlakətlər bütün dünyada ”soyuq duş” effekti yaradıb.**

Vurğulanıb ki, 2016-cı il iyulun 19-da Amerikanın Xüsusi Hərəkat qüvvələri Suriyanın şimalında İŞİD-in ”toplanma məntəqəsi” zənn etdikləri yeri bombalayıb. Amerika rəsmiləri 85 ”terrorçunun” öldürüldüyünü bildirib. Əslində isə öldürülənlər sivil əhali olub. Bombalama nəticəsində İŞİD-in zülmündən qaçaraq zirzəmiyə sığınan mülki şəxslər səhvən qətlə yetirilib. ”Terrorçu ovu”nda 120-dən çox sivil vətəndaşın öldüyü üzə çıxıb.

2017-ci ilin əvvəllərində ABŞ-ın hərbi təyyarəsi Qərbi Mosulda ”bomba yüklü” olduğunu təsdiqlədikləri tünd rəngli avtomobili vurub. Əslində isə məlum olub ki, avtomobildə bomba deyil, yaxınlıqdakı toqquşmalardan qaçan Majid Mahmud Əhməd adında bir kişi və ailəsi var imiş. İraqın Ramadi şəhərində ”terrorçuların” olduğu zənn edilərək vurulan bir binanın içindən də azyaşlı uşağın meyiti çıxıb. Nəşr bu olayların heç birini ”səhv” olaraq qiymətləndirməyib. Yaxın Şərq əməliyyatlarında 1300-dən çox vətəndaşın öldüyü bildirilən hesabatda göstərilib ki, hava hücumu qüsurlu olub və hədəflər tələsik, dəqiqləşməmiş koordinatlarla ”müəyyənləşdirilib”.

**Pentaqonun gizli sənədlərinin mətbu orqanda dərc olunmasını və ortaya çıxan faktları ”Şərq”ə dəyərləndirən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, Amerikanın təhlükəsizlik orqanları dünyanın ən məxfi qurumlarından biridir.** Professor hansısa qəzetin bu cür gizli məlumatları öz gücünə əldə etməsinə inanmadığını söyləyib: ”Başqa dövlətlərdə bunu reallaşdırmaq mümkündür. Məsələn, keçmiş sovet respublikalarında rüşvət çox yayıldığı üçün hətta təhlükəsizlik orqanlarından belə istənilən məlumatı almaq olar. Lakin ABŞ kimi bir ölkədə ”Top secret” sayılan və yaxın 50 ildə açılması qəti qadağan olunan gizli dosyaların sızdırılması şübhəlidir. Təhlükəsizlik orqanlarında çalışanlar vəzifədən azad edildikdən sonra onların dilindən dövlət sirlərini yaymayacaqlarına dair iltizam alınır. Belə məlumatların mətbu orqanda dərc olunması Vaşinqtonun Rusiya, ya da Çinə qarşı yeni təxribat planları hazırladığını göstərir. Bu cür xəbərlərin düşünülmüş və qəsdən yayıldığı qənaətindəyəm. Nəzərə alaq ki, 2003-cü ildən sonra Ağ Ev Amerika əsgərlərinin bir daha heç bir ölkəyə girməyəcəkləri barədə qərar qəbul etmişdi. Görünür, məhz bu qərarı geri oxumaq üçün müəyyən yollar axtarırlar. Onsuz da İŞİD terror təşkilatının Yaxın-Orta Şərqi idarə etmək üçün ABŞ tərəfindən yaradıldığı və idarə olunduğu bəlli idi. Vaşinqton Yaxın Şərq siyasətini həyata keçirərkən müxtəlif versiyalara əl atır”.

**C.Nuriyev diqqətə çatdırıb ki, Amerikada siyasətlə məşğul olanların sayı çox azdır:** ”Hardasa 10-15 faiz siyasətlə maraqlanır ki, onların da peşəkarlıq səviyyəsi çox aşağıdır. Ağ Ev bir çox üsullarla ölkə əhalisinin şüuraltına lazımi mesajları ötürür. ABŞ-a məxsus ”New York Times” qəzetinin həddindən artıq ”demokratik” və ”humanist” olması, ölkəsinin nüfuzunu zədələyəcək xəbər dərc etməsi, təhlükəsizlik orqanlarından məlumat ”oğurlaması” qətiyyən inandırıcı deyil. Buna aldanmaq üçün çox sadəlövh olmaq lazımdır. Amerika hökuməti müəyyən ciddi proseslər öncəsi daxili auditoriyaya yönəlik gedişlər edir. Bu da çoxdan bəlli olan taktiki gedişlərin tərkib hissəsidir”.



# "Bu gün ölkədə 500 direktor vəzifəsi boşdur"

## Emin Əmrullayev: “Problem bacarıq və səriştə ilə əlaqəlidir”

**Dünən Təhsil naziri Emin Əmrullayev ölkə mediası üçün brifinq keçirib.**

**Brifinqdə təhsilin keyfiyyətinin artırılması baxımından məktəbəqədər təhsil pilləsinin müstəsna rolu, məktəbəqədər təhsil formasının əhatəliliyinin artırılması istiqamətində mühüm işlər, qarşıda duran hədəflərdən söz açılıb.**

Nazir bildirib ki, əgər bağçalara valideyn işə gedəndə uşağını qoyacağı yer kimi yanaşılarsa, burada təhsil məsələsindən danışmaq olmaz:

”Ölkədə 1825 uşaq bağçası var. Onlardan 1692-i dövlətə məxsusdur. Orada 126 mindən çox uşaq tərbiyə alır. Azərbaycanda 133 özəl bağça fəaliyyət göstərir. Orada 5124 uşaq var. İlin əvvəlinə olan məlumata görə, bağçalarda 17 218 nəfər işləyir”.

Brifinq zamanı təhsil naziri təklif edib ki, alternativ təhsil müəssisələrinin yaradılması istiqamətində addım atılmalıdır:

”Dövlət məktəblərində 5 yaşlı uşaqların təhsilə cəlb edilməsi 80 faizdən yuxarıdır. Uşaqlar bir il daha tez tədrisə başlayırlar. Bəzi fikirlər təəssüf ki, təhrif olunur. Ancaq uşaq nə qədər tez tədrisə başlasa gələcək fəaliyyəti üçün vacibdir. Bu elə başa düşülməsin ki, 1-ci sinfə bir il tez başlanılacaq”.

E.Əmrullayev qeyd edib ki, regional təhsil idarələrinə inam artdıqca, vətəndaş məmnunluğu yüksəldikcə gələcəkdə bir sıra səlahiyyətlərin onlara verilməsinin tərəfdarıdır. Nazirin sözlərinə görə, idarələrin növbəti həftələrdə, yaxud aylarda yaradılması planlaşdırılır: ”Qarabağ və Şərqi Zəngəzurda təhsil idarələrinin yaradılması şanlı zəfərin bariz nümunəsidir”.

**Məktəb direktorlarının təyinatı səlahiyyətinin Təhsil Nazirliyinin tabeliyinə keçməsi ilə bağlı açıqlama verən E.Əmrullayev bildirib ki, yeni sərəncama əsasən bu məsələ həllini tapıb. Onun sözlərinə görə, hər hansı vəzifələrin tutulması üçün qanunvericilik tərəfindən heç bir qadağa yoxdur:**
”Hansısa məktəbin sinif otağında baş verən hadisə birbaşa müəllimdən asılıdır. Forma yox, mahiyyət dəyişikliklərindən danışmaq lazımdır. Direktorlarım təyinatının şəffaf olması üçün proses düzgün qurulmalıdır. Daha mərkəzləşdirilmiş sistemə keçirik, bu da səmərəli şəkildə icra olunur. Əsas təyin olunan adamın peşəkarlığı və bu işin təşkilinin şəffaf olmasıdır. Direktorlar müsabiqə yolu ilə seçilirlər və iştirakçıların sayının az olduğu görünür. Bu gün ölkədə 500 direktor vəzifəsi boşdur. Problem bacarıq və səriştə ilə əlaqəlidir. Təyinatlar üçün rəqabət sistemi qurmağa çalışırıq. Zamanla rəqabətli əmək münasibətləri sistemi ilə məsələ həllini tapacaq”.

Regional Rayon təhsil idarələrinin yaradılması məsələsinə toxunan nazir söyləyib ki, bu, yerlərdəki təhsil şöbələrinin ləğvi demək deyil. Onlar sadəcə yeni yaradılacaq idarələrin tərkibində bir sektor kimi fəaliyyətlərini davam etdirəcəklər. Nazir rayon təhsil şöbəsində çalışan işçilərin işsiz qalmayacağını bildirib: ”Əgər onlar həmin şöbələrdə dövlət qulluğunda daimi müqavilə ilə çalışırdılarsa, yeni strukturda işlə təmin olunacaqlar. Yerli idarəetmə strukturunda və ya idarənin özündə təyinat məsələsinə baxılacaq. Regional təhsil idarələri iqtisadi rayonlar üzrə yaradılacaq”.

“Təyinatlar üçün rəqabət sistemi qurmağa çalışırıq”

**E.Əmrullayev vurğulayıb ki, Regional təhsil idarələri yaradıldıqdan sonra vətəndaş müraciətləri daha tez həll olunacaq:** ”Təhsil Nazirliyinin işləri çox olduğundan müəyyən yubanmalar ola bilər. Vətəndaşların müraciətlərinə baxılması üçün qanunvericilik mövcuddur. İnsanlar haqlı şikayətlərini düzgün qaydada vermədiyinə görə baxılması üçün uzun vaxt tələb edir”.

**Təhsil naziri Emin Əmrullayev məktəblərdə pul yığımlarının olmasının qeyri-qanuni olduğunu qeyd edib:**

Bu, cəmiyyətin xroniki problemidir. Mən oxuduğum müddətdə də belə problem var idi. Valideynlər məktəbin idarəetməsində yaxından iştirak etmirlər: Bu, bir modeldir. Dövlətin hamı üçün hər şey etmək imkanı yoxdur. İcbari təhsil pulsuzdur. Rüşvətin əleyhinəyəm. Əgər valideyn bütün vergilərini ödəyəndən sonra əlində artıq qalan bir manatını məktəbə vermək istəyirsə, şəffaf sistem fikirləşməliyik. Valideynlərin verdiyi ödənişlər könüllü olmalıdır. Yəni məktəblər hansısa pul yığımı olarsa, bu, qaydalar çərçivəsində məcburi yox, könüllü şəkildə olmalıdır”.

Nazir diqqətə çatdırıb ki, Valideyn-Müəllim Assosiasiyaları (VMA) Təhsil Nazirliyinin tabeliyində olan qurum deyil: ”Həmin qurum ictimai şəkildə fəaliyyət göstərir. Quruma üzv olmayan valideynin övladının dərsə gəlməməsini deyən şəxslər qanunsuzluq edir”.

Təhsil naziri deyib ki, yararsız vəziyyətdə olan uşaq bağçaları barədə hələlik məlumata malik deyil: ”Azərbaycan dövləti hər zaman vətəndaşının yaxşı şəraitdə təhsil alması üçün çalışır. Hesab edirəm ki, diqqət və qayğı uşaq bağçalarını da əhatə edəcək”.

E.Əmrullayev təhsil işçilərinin artımla olan əməkhaqqını gələn ilin yanvar ayından ala biləcəklərini vurğulayıb.

Brifinqdə bir müddət əvvəl Almaniyadan Azərbaycana deportasiya olunan jurnalist Röya Rəfilinin övladı ilə bağlı baş verən hadisəyə aydınlıq gətirilib. Belə ki, 116 nömrəli məktəbin müəllimi jurnalistin oğlan övladını saçının uzun olması səbəbindən şagirdlərə qız kimi təqdim edib. Təhsil naziri isə həmin müəllimin bilmədən oğlan şagirdini qız kimi təqdim etdiyini bildirib:

”İnanıram ki, bunu şagirdi alçaltmaq üçün etməyib. Həmin müəllim illərin təhsil işçisidir və savadlı kadrdır. Səhvini etiraf etdi və töhmət də aldı. İzahatında da qeyd etmişdi ki, bilmədən saçının uzun olduğuna görə elə təqdim edibmiş. Həmin təhsil işçilərinə qarşı sərt cəza tədbirlərinin tətbiqi qəbuledilən deyil. Hər kəs səhv edə bilər. Əsas odur, səhvini qəbul edib üzr istəsin”.

**Təhsil naziri Emin Əmrullayev qeyd edib ki, özəl bağçalarda olan nöqsanların mahiyyəti üzrə aidiyyəti qurumlara müraciət etmək lazımdır:** ”Oranın aurası xoş deyilsə, valideyn övladını digər bağçaya qoya bilər. Orada olan tədris və tərbiyə ilə bağlı narahatlıq olarsa, Təhsil Nazirliyinə, uşağın döyülməsi faktı olarsa, o zaman hüquq-mühafizə orqanlarına müraciət edilməlidir”.

Jurnalistlərin suallarını cavablandıran nazir deyib ki, ”Hədəfimiz özəl bağçaların sayını artırmaqdır”.

Təhsil naziri məktəbdə şagirdlərin iştirakı ilə dini məzmunlu klipin çəkilməsinə də münasibət bildirib.

O deyib ki, həmin klipin hansı məktəbdə çəkildiyi Təhsil Nazirliyinə məlumdur.

**Nazirin sözlərinə görə, məktəb hansısa dini və ya siyasi mesajların yayılması yeri olmamalıdır:**

”İnsanlar müxtəlif mövzuda klip çəkə bilər. Sadəcə, kliplərin məzmunundan asılı olmayaraq məktəbdə çəkilməsi qaydalara ziddir. Maarifləndirmə ilə bağlı məktəbdə hər hansı çəkilişlə bağlı Təhsil Nazirliyindən icazə alınmalıdır. Həmin klipin çəkilişi ilə bağlı icazə alınmamışdı. Klipin çəkilişi bazar gününə təsadüf etmişdi. Valideynlər və şagirdlər böyük həvəslə klipdə çəkilmişdi. Ümumilikdə məktəbdə belə klip çəkilişi qeyri-qanunidir. Kimsə ürəyi istədiyi vaxt gəlib məktəbdə klip çəkməməlidir. Bu, nöqsandır və buna yol verən məktəb rəhbərliyi barədə intizam tədbiri görülüb”.

**Aygün Tahir**

# Rusiyanın "humanitar" yardımı bitmir

## Laçın dəhlizinə mütləq post qoyulmalıdır



“Ya da Kreml qarşısında tələb qoyulmalıdır ki, silahlı ermənilər Qarabağı tərk etsin”

**İsmayıl Qocayev**

**Rusiya hərbi karvanı Laçın dəhlizindən keçməklə, Qarabağda etnik ermənilərə növbəti dəfə ”humanitar” yardım gətirib. Rusiya bu cür ”humanitar” yardımları Ukraynanın Donbass bölgəsinə də edir. Bir müddət sonra yardımların ərzaq deyil, silah və sursatlardan ibarət olduğu ortaya çıxır.**

Qarabağda silahlı erməni dəstələrinin sayının 15 minə yaxın olduğu və onların silah təchizatının məhz Laçın dəhlizi vasitəsi ilə həyata keçirildiyi məlumdur. 10 noyabr üçtərəfli bəyanatına görə silahlı erməni birləşmələri ərazilərimizi tərk etməliydi. Amma Rusiya tərəfi öhdəliklərinə əməl etmir. Əksinə, oradakı qanunsuz silahlı dəstələrin təchizatını da ”humanitar yardım” adı altında həyata keçirir.

**Politoloq Məhəmməd Əsədullazadə ”Şərq”ə bildirib ki, Rusiya tərəfi Qarabağdakı etnik ermənilərə nə ”humanitar yardım” göstərməli, nə də hər hansı fərqli fəaliyyət icra etməlidir. Analitikə görə, sülhməramlıların missiyası bölgədə sülhün və təhlükəsizliyin təminidir:** ”Azərbaycan Laçın dəhlizinə nəzarəti öz əlinə almayana kimi Rusiya silahlı erməni birləşmələrinin əli ilə ölkəmizə başağrısı yaratmağa davam edəcək. Rusiya Xocalıda xeyli zirehli texnika yerləşdirib. Prezident İlham Əliyevin Brüsseldə ”Laçın dəhlizində post qoyulmalıdır” mesajı təkcə Zəngəzur dəhlizi ilə bağlı deyildi. Bu, Rusiyanın Qarabağda erməni separatçılarının silahlandırılmasının qarşısını almağa yönəlik açıqlama idi. Laçın dəhlizi Azərbaycanın ərazi bütövlüyü çərçivəsindədir. Rusiya tərəfi bir müddətdən sonra Qarabağda qondarma şəkildə yaratdığı ”rus icmasına” pasport paylayacaq. Bu da Azərbaycan üçün ciddi problemə çevrilə bilər. Qondarma ”rus icmasını” yaratmaqda Kremlin hədəfi Qarabağda daimi qalmaqdır. Amma Rusiyanın geosiyasi ambisiyalarının qarşısı alınacaq”.

**Siyasi şərhçi vurğulayıb ki, gələn ildən Qarabağda silahlı ermənilərin fəaliyyətinin qarşısını almaq üçün Laçın dəhlizində mütləq post qoyulmalıdır:** ”Əlbəttə, Rusiyanın buna reaksiyası mənfi olacaq. Lakin Moskvanın Azərbaycan-Ermənistan əlaqələrinin normallaşmaması və geosiyasi maraqlarına uyğun davam etməsi üçün Qarabağdakı erməni silahlılarından istifadə cəhdlərinin qarşısı birdəfəlik alınmalıdır. Kreml qarşısında konkret tələb qoymalıyıq. Ya silahlı erməni birləşmələri Qarabağdan çıxarılmalı, ya da dəhlizdə post qoyulmalıdır”.

# Barış yarış deyil

## Danışıqları Türkiyənin peşəkar diplomatı aparacaq



Türkiyə İrəvanın qarşısında konstitusiya düzəlişləri şərtini də qoyacaq

**”Cənubi Qafqazda yaranan yeni reallıqlar sülhün, təhlükəsizliyin dayanıqlı hala gəlməsini şərtləndirir. Azərbaycan Ermənistan üzərində qələbə qazandıqdan sonra regional əməkdaşlığın konfiquriyası sürətlə dəyişir”.**

Bunu ”Şərq”ə açıqlamasında siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, reallıqlar vəziyyətə qlobal təsvir verməyi də zəruri edir. Artıq dünya güclərinin regiona marağı artır və bir növ aşkar rəqabətə girişirlər: ”Hələlik Cənubi Qafqaz uğrundakı qlobal maraqlar artan hibrid müharibə ilə müşayiət olunmur. Ancaq gələcəkdə əməkdaşlıq platforması dərinləşdikcə ortaya çıxacaq yeni şərtlər fonunda hibrid müharibələrin elementləri özünü aşkara çıxaracaq. Cənubi Qafqazdakı reallıqlar bölgə dövlətlərini öz maraqlarını Zəngəzur dəhlizi üzərindən yeni sferaya gətirməyə gündəlik təqdim edir. Bu xüsusda Ermənistan Azərbaycanla və Türkiyə ilə münasibətlərini istiləşdirmək cəhdləri edir. Hərçənd, bu, ilkin etapdır. Ankara-İrəvan arasındakı əlaqələrin gələcək zəmini üçün sağlam bünövrələr qoyulur. Artıq dialoq üçün hər iki ölkə xüsusi nümayəndə təyin edib. Türkiyənin təyin etdiyi nümayəndənin, Serdar Kılıçın tərcümeyi-halından aydın olur ki, o, kifayət qədər peşəkar diplomatik təcrübəyə malikdir. Üstəgəl, Milli Təhlükəsizlik Şurasının baş katibi vəzifəsində də işləyib. Türkiyə Ermənistanla danışıqlarda zəngin təcrübəyə malik diplomatın müzakirələrdə iştirak tərzinə, diktəedici tərəfə çevriləcəyinə qəti əmindir. Ermənistanın təyin etdiyi xüsusi nümayəndə Ruben Rubinyan isə təcrübə və peşəkarlıq baxımından Serdar Kılıçdan olduqca aşağı səviyyəli hesab oluna bilər. O, Ermənistan parlamentinin vitse-spikeridir. Danışıqların gedişatında Türkiyə münasibətlərdə heç bir mübahisəli məsələ qalmaması üçün gündəlik təyin edəcək. Yəni təkcə iqtisadi prioritetlər əsas müzakirə mövzusu olmayacaq. Türkiyə öz suverenliyinə, ərazi bütövlüyünə nəzəri də olsa təhdidlərin aradan qaldırılması üçün Ermənistana şərt qoyacaq. Söhbət ondan gedir ki, Ermənistanın Müstəqillik Aktında və Konstitusiyasında Türkiyəyə qarşı hədyanlar yer alıb. Məsələyə aydınlaşdırıcı və konkretləşdirici tezis vermək üçün həmin sənədlərdən sitatlar gətiririk. Müstəqillik Aktından (1990-cı ilin 23 avqustunda elan edilib - red) sitat: ”Ermənistan 1915-ci ildə Osmanlı Türkiyəsində və Qərbi Ermənistanda baş vermiş erməni soyqırımının beynəlxalq səviyyədə tanınmasını dəstəkləyir”. Ermənistan Konstitusiyasına diqqət yetirək: - ”Ermənistan Respublikasının gerbində Nuhun gəmisi, Ararat dağı (Ağrı-dağ nəzərdə tutulur) və tarixi Ermənistan krallıqları əks olunub”. Bir zamanlar Ermənistanda prezident olan və etdiyi cinayətlərlə qürrələnən Serj Sarkisyan da Ağrı dağını işğal edəcəklərini bildirmişdi”.

Ekspert qeyd edib ki, Ağrı dağı Türkiyə ərazisindədir və Ankara heç zaman hansısa sənəddə öz suveren ərazisinə gerblər vasitəsilə, ya da aşkar şəkildə təhdidləri qəbul edə bilməz: ”Bu mənada deyə bilərik ki, münasibətlər ilkin mərhələnin şərtləri səviyyəsində qurulduqdan sonra sonrakı etaplarda Ankara İrəvan qarşısında konstitusiya məsələsini qoyacaq. İrəvanın Ankara ilə münasibətlərinin hərtərəfli istiqamətdə normallaşması həm də Ermənistanın başqa ölkənin ərazisinə iddiadan əl çəkməsindən keçir. İndi İrəvan praqmatik siyasət üzərində özünün gələcəyini inşa etmək istəyirsə, Ağrı dağına qarşı mistik və utopik iddialarından əl çəkdiyini legitim şəkildə elan etməlidir. Bu arada, postmüharibə dövründə Ermənistanda konstitusiya dəyişiklikləri də gündəmə gəlir. Ankara-İrəvan danışıqları intensivləşsə, konstitusiyaya düzəlişlərdə Ağrı dağı məsələsinə son qoyulacaq. Düzü, Ermənistanın şərtləri qəbul etməmək üçün direniş göstərməyə heç bir resursu da yoxdur. Bu mənada danışıqlarda Ankaranın şərtlər konsepsiyası üstünlük təşkil edəcək. Qondarma erməni soyqırımı məsələsinə gəlincə, bu, siyasi dəyərləndirmələrin yox, tarixi tədqiqatların predmetidir. Gələcəkdə yəqin ki, iki ölkə arasında tarixçilərdən ibarət müştərək komissiya yaradılacaq və Ermənistanın iddialarının yanlışlığı sübuta yetiriləcək”.

**İsmayıl Qocayev**

# “Tərtər işi"ndə bütün günahkarlar cəza alacaqmı?

## Rey Kərimoğlu: ”Daha şəffaf bir məhkəmə prosesi həyata keçirilməlidir”



**Bir müddət öncə Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətləri ”Tərtər işi” ilə bağlı birgə məlumat yayıb.**

Məlumatda qeyd olunub ki, Müdafiə Nazirliyi ”Tərtər işi”ni törətməkdə şübhəli hesab etdikləri şəxsləri sorğulama prosesinə cəlb edib. Artıq zərərçəkmiş kimi tanınan şəxslər və işgəncələrə məruz qaldığı iddia edilən hərbi qulluqçular Baş Prokurorluğa dəvət olunur:

”Həmin faktlarla bağlı Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılaraq 19 təqsirləndirilən şəxs barəsində beş cinayət işinin ibtidai istintaqı yekunlaşdırılıb aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilib, məhkəmələrin ittiham hökmləri ilə onlar müxtəlif cəzalara məhkum ediliblər”. Bildirilib ki, bu cinayətlərdən ziyan çəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpası və müdafiəsi üçün zəruri tədbirlərin görülməsi üçün 2021-ci ilin 16 dekabr tarixində Baş Prokurorluqda göstərilən faktlar əsasında cinayət işlərinin təzələnməsi haqqında qərarlar qəbul edilib. Cinayət işləri Baş Prokurorluğun icraatına qəbul edilməklə ibtidai istintaq Azərbaycan Respublikasının baş prokuroru tərəfindən xüsusi nəzarətə götürülüb. Eyni zamanda, kütləvi informasiya vasitələrinin nümayəndələrinin, sosial media platforma istifadəçilərinin, cinayət prosesi iştirakçılarının diqqətinə çatdırılıb ki, ibtidai araşdırma məlumatlarının müvafiq icazə olmadan yayılması yolverilməzdir: ”Bu, qanunvericiliyə əsasən məsuliyyət yaradır. Bundan əlavə istintaqa təsir göstərmək, cəmiyyətdə qəsdən yanlış fikir formalaşdırmaq, qalib Azərbaycan Ordusunun nüfuzuna, dövlət orqanlarının fəaliyyətinə kölgə salmaq məqsədilə qərəzli surətdə təhrif olunmuş məlumatlar yayan şəxslər barəsində qanunvericiliyə uyğun tədbirlər görüləcək”.

”Tərtər işi”nin bundan sonrakı istintaq prosesində hansı məqamlara aydınlıq gətiriləcəyi maraq doğurmaya bilməz.

**Qarabağ qazisi, hərbi jurnalist Rey Kərimoğlu ”Tərtər işi”nin yenidən istintaqa qaytarılması barədə ”Şərq”ə bildirib ki, bunun bir neçə il əvvəl başladılan və başında Nəcməddin Sadıqovun bacısı oğlu, general-mayor Ramil Əsgərovun dayandığını hər kəs bilir:**

”Düşünürəm ki, obyektiv və şəffaf istintaq aparılacaq. Günahkarlar məhkəmə qarşısına çıxarılıb öz cəzasını alacaq. Hüquq-mühafizə orqanları istintaqın aparıldığını deyir. Görünən odur ki, məsələdə müəyyən boşluqlar olub”.

Hərbi jurnalist məhz belə boşluqların prosesin obyektivliyini şübhə altına aldığını vurğulayıb və başladılan istintaq prosesinin növbəti mərhələsinə diqqət çəkib: ”Həm istintaq, həm də məhkəmə araşdırmasının obyektivliyinə inam azdır. Bu səbəblərdən daha şəffaf bir məhkəmə prosesi həyata keçirilməlidir. İstintaqın növbəti mərhələsində isə hansı məqamların ortaya çıxacağını təxmin etmək çətindir”.

**Günəş Mərd**

# Ərdoğanın açıqlaması bazara pozitiv siqnal göndərdi

## Bundan sonra lirə dollar qarşısında əhəmiyyətli dərəcədə bahalaşdı



*“Əsas problem inflyasiyadır. Ölkədə qiymətlər kəskin sürətdə bahalaşır, bir tərəfdən də pul emissiyası artır”*

**Türkiyə lirəsi dollar qarşısında dəyər qazanıb. Hazırda 1 dollar 12 lirə nisbətindədir. Ekspertlər normallaşma prosesinin davam edəcəyini vurğulayıblar. Xatırladaq ki, son günlər Türkiyədə lirə-dollar nisbətində milli valyutanın kəskin dəyər itirməsi nəticəsində 1 ABŞ dolları 18 lirəni keçmişdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Nazirlər Kabinetinin iclasından çıxışından sonra lirə dollar qarşısında dəyər qazanmağa başlayıb.**

Prezident Ərdoğan çıxışında yeni iqtisadi sistemə keçəcəklərini və türk lirəsinin məzənnəsi üçün yeni tənzimləmələr olacağını bildirib. Lakin Ərdoğan uçot dərəcəsinin aşağı həddə saxlanması siyasətinin davam etdiriləcəyini də deyib. Türkiyə mətbuatının yazdığına görə, Ərdoğanın çıxışından sonra vətəndaşlar kütləvi şəkildə banklara axışaraq dollar satmağa başlayıblar. Bu da lirənin dollar qarşısında sürətlə dəyər qazanmasına səbəb olub. Türkiyənin böyük kapitala məxsus olan bir çox bankları, o cümlədən Ziraat Bankı açıqlama yayaraq bildirib ki, vətəndaşlar 1 gün ərzində 1 milyarddan artıq dolları lirəyə dəyişiblər. Yerli ekspertlərə görə, dolların həddən artıq dəyər itirməsi də yaxşı deyil. Çünki Türkiyə ixracatı gücləndirmək istəyir. Dollar həddən artıq dəyər itkisi ilə üzləşsə, tekstil sahəsindəki ixracata və turizmə zərbə vura bilər. İqtisadçıların fikrincə, koronavirusdan sonra lirənin həqiqi dəyəri 8-9 arasıdır.

**İqtisadçı Samir Əliyev bildirib ki, Türkiyə prezidentinin çıxışında təklif etdiyi yeni mexanizm milli valyutanı qorumaqla yanaşı, bank sektorunun dollarlaşmasının qarşısını almaq cəhdidir. Ərdoğanın açıqlamasına diqqət çəkən ekspert bildirib ki, türk lirəsinin məzənnəsinin ucuzlaşma səviyyəsi lirə əmanətinə verilən faiz gəlirindən çox olarsa, bu halda fərq birbaşa əmanətçiyə ödəniləcək. Həm də gəlir vergisindən azad olunacaq:** ”Digər tərəfdən ixracatçı şirkətlərə Mərkəzi Bank vasitəsilə forvard məzənnələri veriləcək ki, şirkətlər həmin məzənnə əsasında satış strategiyalarını qursunlar. Bu halda da forvard məzənnə ilə satış məzənnə arasındakı fərq ixracatçı şirkətlərə kompensasiya ediləcək. Yeni maliyyə aləti kifayət qədər cəlbedicidir. Təsadüfi deyil ki, Ərdoğanın açıqlaması bazara pozitiv siqnal göndərdi və lirə dollar qarşısında əhəmiyyətli dərəcədə bahalaşdı. Xəbərin təsiri sonrakı gün də davam edib, Asiya bazarlarında lirə mövqeyini xeyli möhkəməndirib”.

**S.Əliyev vurğulayıb ki, Türkiyə lirəsinin ucuzlaşmasının zərərlərindən biri də bank sektorunun dollarlaşmasının stimullaşması idi:** ”Yola saldığımız 2021-ci ildə həm kredit, həm də depozit portfeli ABŞ dollarının ”nəzarəti altına” keçib. Dekabr ayının 10-u tarixinə olan məlumata görə, il ərzində xarici valyuta kreditlərinin payı kredit qoyuluşunda 31.9 faizdən 41.6 faizə yüksəlib. Bu göstərici xarici valyutaların xeyrinə qiymətli kağızlarda da dəyişərək 41,2 faizdən 52,4 faizə çatıb. Xarici valyutaların payının artması lirə depozitləri və kreditlərinin azalması ilə bağlı deyil. Bu, xarici valyutaların artım tempinin lirənin artım tempini üstələməsi və əlbəttə, məzənə ilə bağlıdır. Ərdoğanın təqdim etdiyi maliyyə alternativinin müsbət təsirinin nə qədər davam edəcəyini söyləmək çətindir. Hazırda əsas problem inflyasiyadır. Ölkədə qiymətlər kəskin sürətdə bahalaşır, bir tərəfdən də pul emissiyası artır. Ölkədən kapital axını var, valyuta ehtiyatı tükənir, xarici borc artır. Lirəyə inamın arxasında real iqtisadi güc durmalıdır”.

**İsmayıl**



# Rusiya təyyarələri Füzuli Hava Limanına enəcək

## Bu, iki ölkə arasında turizmlə yanaşı, digər sferalarda əməkdaşlığın gücləndirilməsinə də təkan verəcək

**Rusiyanın Federal Hava Nəqliyyat Agentliyi (Rosaviasiya) 3 aviaşirkətə Rusiyanın müxtəlif şəhərlərindən Azərbaycana 7 uçuşun həyata keçirilməsi üçün icazə verib. Sözügedən şirkətlər ”Azur Air”, ”Severnı veter” və ”İrAero”dur.**

Qərara əsasən, ”İrAero” şirkəti həftədə iki dəfə Moskva-Füzuli və Moskva-Zaqatala reyslərini həyata keçirəcək. Bununla yanaşı, ”Azur Air” şirkəti Rusiyanın dörd şəhərindən Bakıya reyslərin təşkil edilməsinə icazə alıb. Sözügedən şəhərlər Samara, Rostov-na Donu, Krasnodar və Kazandır. Şirkət hər həftə iki dəfə həmin şəhərlərdən Bakıya uçuşlar edə biləcək. ”Severnı veter” aviaşirkəti isə həftədə 7 dəfə Soçi-Bakı reysinin həyata keçirilməsinə icazə əldə edib.

**Uçuşların bərpası və yeni reyslərin açılması ilə bağlı fikirlərini ”Şərq”lə bölüşən millət vəkili Vüqar Bayramov deyib ki, Azərbaycana gələn turistlərin sayı baxımından Rusiya çox vacib ölkədir. Deputatın sözlərinə görə, il ərzində Azərbaycana gələn turistlərin böyük qismi məhz şimal qonşumuz - Rusiyanın payına düşür:** ”Rusiyada təxminən 2,5 milyona yaxın azərbaycanlı yaşayır. Bu da birbaşa turizm sahəsindəki əməkdaşlığımıza təsir göstərir. O baxımdan uçuşların bərpası və sayının artırılması müsbət haldır. Bu, iki ölkə arasında turizmlə yanaşı, digər sferalarda əməkdaşlığın gücləndirilməsinə də təkan verəcək. Müsbət məqamlardan biri də yeni istifadəyə verilmiş Füzuli beynəlxalq hava limanına uçuşların həyata keçirilməsidir. Gələcəkdə Füzuli hava limanına xarici ölkələrdən daha çox uçuşlar həyata keçiriləcək. Bu da təbii ki, Qarabağın yenidən bərpası, Azərbaycan iqtisadiyyatının reinteqrasiyası baxımından vacibdir. Praktik olaraq Füzuli hava limanı, eyni zamanda Qarabağdakı digər aeroportlar yaxın zamanlarda digər ölkələrin turizm və digər işgüzar səfərlər çərçivəsində maraq dairəsinə daxil olacaq”.

**İsmayıl Qocayev**



# Gərginlik artacaq

## NATO hədəflərindən bir addım çəkilməyib

**NATO-nun Şərqə doğru genişlənməsi ”soyuq müharibə”dən sonrakı eyforiya və yanlış təsəvvürlərin nəticəsidir. Bu barədə Rusiya Prezidenti Vladimir Putin Müdafiə Nazirliyinin kollegiya iclasında deyib. Putin bildirib ki, NATO onun ölkəsinin sərhədlərinə yaxınlaşacağı təqdirdə, Rusiya hərbi-texniki tədbirlər görməyə hazırdır:**

”Qərbli həmkarlarımızın aşkar aqressiv xətti davam edərsə, biz adekvat hərbi-texniki tədbirlər görəcəyik və qeyri-dost addımlara sərt reaksiya verəcəyik. Mən vurğulamaq istəyirəm ki, bizim buna haqqımız var”. Kreml rəhbəri ”soyuq müharibə”dən sonra NATO-nun Şərqə doğru genişlənməsindən təəccübləndiyini vurğulayıb. Xatırladaq ki, ABŞ gələn il üçün müdafiə büdcəsindən Baltikyanı ölkələrin müdafiə qabiliyyətini gücləndirmək məqsədilə 175 milyon dollar məbləğində vəsait ayrılıb. Vurğulanıb ki, bu yardım Baltikyanı regionun təhlükəsizliyi NATO-nun təhlükəsizliyi nöqteyi-nəzərindən vacibdir. Məlumat üçün onu da bildirək ki, Rusiya Xarici İşlər Nazirliyi bir neçə gün öncə işgüzar müzakirələr üçün Vaşinqtona təqdim edilən saziş layihəsini dərc edib. Sazişdə tərəflərin bir-birinin təhlükəsizlik risklərini aradan qaldırmaq üçün nə etməli olduğu, həmin riskləri yaratmamaq üçün nələri etməməyi öhdəsinə götürdükləri qeyd olunub. Bütövlükdə Rusiya ABŞ-a müqavilə öhdəliyi təklif edir ki, postsovet respublikalarının NATO-ya üzv olmasına, onlarla ikitərəfli hərbi əməkdaşlığa və ya hərbi bazaların yerləşdirilməsinə imkan verməsin.

**Amerika-Rusiya gərginliyi ilə bağlı ”Şərq”ə danışan Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev deyib ki, SSRİ-nin süqutundan sonra ABŞ-ın qarşısına qoyduğu ən önəmli hədəf Şərqi Avropa ölkələrini NATO-nun nəzarəti altına almaq olub. Politoloq vurğulayıb ki, ikinci hədəf isə keçmiş sovet respublikalarının Rusiyadan qoparılması idi:** ”Üç Baltikyanı respublika NATO üzvüdür. Ukrayna və Gürcüstanın hərbi alyansa üzv olması uğrunda mübarizə gedir. Bu prosesin bir qədər də uzanacağı məlumdur. Rusiya Ukrayna və Gürcüstanı geri qaytarmaq uğrunda aktiv və sərt mübarizəyə girişib. Lakin Moskva prosesləri ancaq ləngidə bilər. Əslində ABŞ və Avropa ölkələri Şərqi Avropadan sonra Rusiya ilə aralarında keçmiş sovet respublikaları hesabına ”bufer zona” yaratmağa nail olublar. Rusiyanın yaratdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Avrasiya İttifaqı faktiki olaraq kağız üzərində olan qurumdur. Bu respublikalar, o cümlədən Rusiyanın əyaləti kimi görünən Ermənistan da artıq KTMT-yə inanmır. Qurumun formal xarakter daşıdığını etiraf edir”.

***Rusiya isə Ukrayna və Gürcüstanı geri qaytarmaq uğrunda aktiv və sərt mübarizəyə girişib***

V.Əfəndiyevə görə, Rusiyanın təkbaşına Çin və ABŞ-ın təzyiqlərinə nə qədər tab gətirəcəyini zaman göstərəcək: ”Bəzi ekspertlər Rusiyanın Çinlə yaxınlaşma proyektindən danışaraq bu ittifaqı perspektivli görsələr də reallıq tamam başqadır. Çin və Rusiya çox ciddi şəkildə Qərb texnologiyasından asılıdır. Çinin ilk baxışdan ucuz və kütləvi istehsalı dünya bazarında dominant görünə bilər. Amma keyfiyyət baxımından Qərb texnologiyasından geridədir. Avropanın qaz ehtiyatlarının 30 faizinin Rusiyanın ödəməsi heç də Putin üçün əlavə üstünlük qazandırmır. Valyutaya böyük ehtiyac duyan tərəf Rusiyadır. İnkişaf və perspektiv üçün isə ən müasir texnologiya lazımdır. Rusiya və Çin tərəqqi üçün əsaslı və etibarlı bünövrəyə malik deyil”.

*Siyasi şərhçi vurğulayıb ki, Rusiyanın Ukraynaya qarşı ciddi təzyiqləri və hərbi müdaxilə hədələri Zelenskini geri addım atmağa sövq etməyəcək:* ”Ukraynanın eks-prezidentinə qarşı cinayət işi qaldırılıb. Onu Rusiya ilə əməkdaşlıqda günahlandırırlar. Tələsik ölkəni tərk edən Poroşenko geri qayıdacağını desə də, onun üçün həbs təhlükəsi var. Ukrayna Rusiya təhlükəsini gözə alıb. Hətta mümkündür ki, Kiyev Gürcüstan variantında olduğu kimi şərq ərazilərinin bir qismini de-yure itirməyə də razılıq versin”.

**İsmayıl Qocayev**

# Quru yolla dönüşə icazə verilməlidir

## Soydaşlarımız yaxınlarının nəşini Azərbaycanda dəfn etmək istəyir

**Rusiyada yaşayan bir həmyerlimiz millət vəkili Aydın Mirzəzadəyə müraciət edib. Bu barədə deputat sosial şəbəkədə özü məlumat verib. Parlament üzvü bildirib ki, ona müraciət edən həmyerlimiz son dönəmlər əksər soydaşımızın üzləşdiyi mühüm bir məsələni gündəmə gətirib və problemin həll olunmasını xahiş edib: ”Həmyerlimiz xahiş etdi ki, yaxın xarici ölkələrdə yaşayan bir qrup soydaşımız üçün quru sərhədləri açılsın.**

Dedi ki, hamının vəziyyəti eyni deyil və yasları düşəndə cənazəni təyyarə ilə gətirmək imkanları olmur. Quru sərhədlər bağlı olduğundan rəhmətə getmiş yaxınlarını müvəqqəti yaşadıqları yerdə dəfn etmək məcburiyyətində qalırlar”. A.Mirzəzadə məsələ ilə bağlı Diaspora Komitəsi ilə danışdığını, qurumun buna diqqət edəcəyini bildirib. Həmçinin Baş nazirə yazılı müraciət etmək fikrində olduğunu deyib. Xatırladaq ki, koronavirus pandemiyasına görə, Azərbaycan ötən ilin martından bir sıra qonşu ölkələrlə quru sərhədlərini bağlayıb.



*"Məsələ Nazirlər Kabineti, Xarici İşlər Nazirliyi səviyyəsində həll edilməlidir"*

**Rusiyada müvəqqəti yaşayan həmyerlimizin qaldırdığı və deputatın ictimailəşdirdiyi problemlə bağlı ”Şərq”ə danışan siyasi şərhçi Azər Həsrət deyib ki, Azərbaycandan kənarda milyonlarla soydaşımız uzun müddətdir yaşayır. Analitik bildirib ki, əksər həmyerlimiz üz tutduğu ölkəyə birdəfəlik getdiyi üçün dünyasını dəyişən yaxınlarını elə həmin ölkədə dəfn edirlər:** ”Əlbəttə, bu, onların seçimidir və sayğılı yanaşırıq. Amma elə soydaşımız var ki, özünün, eləcə də öz yaxınının nəşinin hansısa xarici ölkədə deyil, Azərbaycanda, yurdunda dəfn olunmasını istəyir. Qonşu ölkələrə müvəqqəti üz tutmuş vətəndaşlarımız da az deyil. Onlar dünyasını dəyişmiş yaxınlarının nəşini Azərbaycana gətirmək üçün müxtəlif yollar axtarırlar. Bu mənada deputat Aydın Mirzəzadənin təşəbbüsü alqışlanmalıdır. Düşünürəm ki, sadəcə, Diaspora Komitəsi deyil, bütövlükdə hökumət konkret qərar verməlidir. Məsələ Nazirlər Kabineti, Xarici İşlər Nazirliyi səviyyəsində həll edilməlidir. Xarici ölkələrdəki səfirliklərimizə tapşırılmalıdır ki, dünyasını dəyişmiş vətəndaşlarımızın yaxınları müraciət etdikləri təqdirdə onların nəşinin Azərbaycana dövlət hesabına gətirilməsini təmin etsinlər. Həqiqətən də, cənazələrin təyyarə ilə gətirilməsi çox baha başa gəlir. Əgər kimsə cənazəsini öz hesabına quru yolla gətirmək istəyirsə, onlara xüsusi icazələrin verilməsi mümkündür. Hər halda vətəndaşların razı qalmasına çalışmaq lazımdır”.

**İsmayıl Qocayev**

# Yanlış yoldan döndü

## İran Azərbaycan və Türkiyə “qapılarını açır”

**Xəbər verdiyimiz kimi, 19 dekabr tarixində İslam Əməkdaşlıq Təşkilatının İslamabadda keçirilən iclası çərçivəsində İran xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan Azərbaycan XİN başçısı Ceyhun Bayramovla görüşüb. Görüş zamanı tərəflər iki ölkə arasındakı əlaqələrin inkişafından məmnunluğunu bildirib.**

Dövlətlər arasındakı əməkdaşlıq perspektivlərini müzakirə ediblər. Sonda C.Bayramov iranlı həmkarını Bakıya səfərə dəvət edib. Xatırladaq ki, dekabrın 20-də keçirilən həftəlik brifinqdə İran XİN sözçüsü Səid Xəttabi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın İrana səfər edəcəyini söyləyib. O bildirib ki, hazırda görüş üçün hazırlıq işləri görülür. Maraqlıdır, son dönəm rəsmi Tehranın Azərbaycan və Türkiyəyə ”isti münasibəti”nin əsas səbəbləri nələrdir və bu dövlətlər arasındakı mövcud münasibətlər perspektivdə nələr vəd edir?

**Bir müddət öncə İran rəsmisinin Bakı ilə münasibətlərdə yaratdığı gərginliyi xatırladan politoloq Sədrəddin Soltan ”Şərq”ə deyib ki, bu gərginlik hərbi hədələrə qədər yüksəldi:** ”Bəziləri ehtimal edirdilər ki, Azərbaycanla İran arasında hansısa hərbi toqquşma baş verəcək. Bunların hamısı kimlərinsə baş tutmayan arzusu idi. İndi İran çalışır ki, hansısa təhdidlərlə özünün Azərbaycana qarşı atdığı o yanlış addımları ört- basdır etsin. Misal üçün, Azərbaycan ərazisində ermənilər tərəfindən fəaliyyət göstərən şirkətlərin Qafan-Gorus yolu ilə qanunsuz hərəkətləri və s. bu qəbildəndir”.

Politoloq rəsmi Tehranın axır ki, qonşu dövlətlərlə arasındakı münasibətlərdə ən yaxşı yolun qarşılıqlı əməkdaşlıqdan keçdiyini başa düşdüyünü söyləyib: ”Beləcə onun qonşu dövlətlərlə dialoqları başladı. Türkmənistan qazının tranzit yolu ilə Azərbaycana, burdan da İranın beş əyalətinə ötürülməsi də həmin dialoqların nəticəsidir. Son zamanlar rəsmi Tehran ”3+3 formatı”nı, Zəngəzur dəhlizinin açılması məsələsini dəstəklədiyini bildirir. Bu, dövlətlər arasında əməkdaşlıqla bağlı razılaşmaların olduğunu göstərir”.



*"Son zamanlar rəsmi Tehran "3+3 formatı"nı, Zəngəzur dəhlizinin açılması məsələsini dəstəklədiyini bildirir"*

*S.Soltan İran XİN başçısının ölkəmizə edəcəyi səfərə toxunaraq burda başlıca müzakirə mövzusunun perspektiv əməkdaşlıq məsələləri olacağını deyib:* ”Hətta ola bilər ki, o, çox böyük ehtimalla Cənub-Şimal dəhlizinin sınaq açılışında iştirak etsin. Bu xətt Hindistandan başlayaraq körfəzə, ordan İrana, daha sonra Azərbaycana, burdan da Rusiya ərazisinə qədər uzanır. Yol isə İrandan Azərbaycana, Gürcüstana, Qara dənizə və Avropaya gedir. Bütün hallarda İran XİN başçısının ölkəmizə səfəri hər iki dövlətin qarşılıqlı əməkdaşlığı üçün fürsətdir”.

**Politoloq eyni zamanda Türkiyə prezidentinin İrana planlaşdırılan səfərinə diqqət çəkib:** ”Bu səfərdə iki ölkə arasında böyük müqavilələrin imzalanacağı gözlənilir. Ola bilsin, həmin məsələlərdə Azərbaycana aid hansısa detallar da var. Səfər proqramı açıqlanmayıb, amma məlumdur ki, bu rəsmi yox, işgüzar səfərdir. Bütün hallarda əməkdaşlıq üçün nazirlik nümayəndələrinin, dövlət rəsmilərinin belə səfərləri ölkələr arasındakı münasibətlərin normallaşmasına şərait yaradır”.

**Günəş Mərd**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

Mələhət Rzayeva



# Uşaq bağçalarının Təhsil Nazirliyinin tabeliyinə verilməsi doğru qərardır

## İcra hakimiyyətləri işi qura bilmədilər, tədris, tərbiyə prosesi axsayırdı

**Uşaq bağçalarının icra hakimiyyətlərinin tabeliyindən çıxarılaraq Təhsil Nazirliyinə verilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncam həm təhsil sahəsi üzrə mütəxəssislər, həm də valideynlər tərəfindən razılıqla qarşılanıb. Xatırladaq ki, Prezident İlham Əliyev dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, yerli icra hakimiyyəti orqanlarının (Bakı şəhəri üzrə Bakı Şəhər İcra Hakimiyyətinin, Gəncə şəhəri üzrə Gəncə Şəhər İcra Hakimiyyətinin) tabeliyində olan dövlət məktəbəqədər təhsil müəssisələri (uşaq evləri istisna olmaqla) Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilsin. Nazirlər Kabineti isə bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir. Təhsil mütəxəssisləri sərəncamın uşaq bağçalarının yenilənməsi, təkmilləşməsi istiqamətində müsbət irəliləyişə təkan verəcəyinə inanmaqla yanaşı, uşaqların fiziki və mənəvi tərbiyəsində də əhəmiyyətli olacağını hesab edir. Zatən təhsil mütəxəssisləri bu fikirdə idi ki, uşaq bağçaları təhsil zəncirinin mühüm halqasıdır və bu sahə Təhsil Nazirliyinin əhatə dairəsində olmalıdır. Uşaqlar ilkin bilik və bacarıqları uşaq bağçalarında qazanır və ya qazanmalıdır. Söhbət icra hakimiyyətlərinin uşaq bağçalarına hansı dərəcədə diqqət ayırmasından getmir. Mümkündür ki, icra hakimiyyətləri uşaq bağçalarını lazımi avadanlıq, qida ilə təchiz etsin. Hərçənd, bunun o qədər də mükəmməl olmadığı da məlumdur. Bir nümunə gətirək ki, bu yaxınlarda Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi dövlət uşaq müəssisələrində yoxlama aparmışdı. Bu barədə məlumat verən AQTA-nın əməkdaşı Şəhla Yusifzadə qeyd etmişdi ki, bu il oktyabrın 4-dən ölkə üzrə fəaliyyət göstərən bütün məktəbəqədər təhsil müəssisələrində yoxlamalara başlanılıb. Bunların sayı 1622-dir: "Dekabrın 1-nə olan statistikaya görə, 220 müəssisədə dövlət nəzarət tədbirləri başa çatıb. 205 müəssisədə 1236 nöqsan aşkarlanıb. Bütün bu monitorinqlərin yekunu olaraq məktəbəqədər təhsil müəssisələrində qidalanmanın düzgün təşkil edilməsinə dəstək məqsədilə həm Bakıda, həm də bölgələrimizdə fəaliyyət göstərən uşaq bağçaları və körpələr evi rəhbərlərinin və məsul şəxslərin iştirakı ilə təlim keçirilib. Bu təlimlər artıq silsilə xarakteri daşıyır və davam etdiriləcək". Ş.Yusifzadə bildirib ki, dövlət bağçalarında yoxlamalar yekunlaşdıqdan sonra ikinci mərhələdə özəl bağçalarda da yoxlamalara start veriləcək.

AQTA yanında İctimai Şuranın üzvü, Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə hesab edir ki, uşaqların sağlamlığı sağlam qidalanmadan başlayır. Uşaqların sağlamlığını düşünürlərsə, bağçalarda qidaların kalorisi uşaqların tələbatına uyğun olmalı, qidanın kalorisi uşaqların yaş qrupuna görə dəyişməlidir. Bunun üçün xüsusi normativ qaydalar var. Bağçalarda buna mütləq əməl olunmalıdır. Həmçinin, sanitar-gigiyenik qaydalara riayət edilməli, mətbəxlər, qidaların, ərzağın saxlanma şəraiti normalara uyğun olmalıdır: - Uşaqlar bağçada ilkin vərdişlər qazanır. Hərflərlə tanış olurlar, danışıq vərdişləri, mahnı oxumaq, rəqs etmək qabilyyəti qazanırlar. Bunlar hamısı təhsilin elementləridir. Eyni zamanda fiziki tərbiyə ilə də məşğul olurlar. Bu, uşaqların gələcək inkişafını təmin edən amildir.

**Təhsil naziri Emin Əmrullayev də uşaq bağçaları ilə bağlı məsələyə toxunub. Nazir bildirib ki, ölkədə 1825 uşaq bağçası var ki, onlardan 1692-i dövlət müəssisəsidir. Onun sözlərinə görə, bu müəssisələrdə ümumilikdə 126 min 509 uşaq təhsil alır:**

"Dövlət məktəbəqədər təhsil müəssisələrindəki uşaqların sayı 120 min 485, özəl müəssisələrdəki uşaqların sayı isə 5124 nəfərdir. Təhsilin keyfiyyətinin artırılması baxımından məktəbəqədər təhsil önəmli pillədir. Eyni zamanda məktəbəqədər təhsildə əhatəlilik ölkənin rifahının, sağlamlığının, şagirdlərin nailiyyətlərinin əsas fundamentidir. Məktəbəqədər təhsillə bağlı son illər ciddi uğurlar əldə olunub. Əhatəliliyin artırılması istiqamətində ciddi işlər görülüb", - nazir deyib. Uşaq bağçaları ümumi orta təhsilin ilk pilləsi hesab edilir. Uşaqlar ibtidai sinfə daha hazırlıqlı olsun deyə, bağça tədrisi önəmlidir. Erkən yaşdan məktəbəqədər təhsilə ayrılan müddət, məktəblinin, şagirdin məktəbdə aldığı dərs və həmin dərsin məzmunu çox vacibdir. Nazir bildirib ki, inkişaf etmiş ölkələrin bir çoxunda 3 yaşdan başlayaraq 100 faizlik təhsil əhatəliliyi mövcuddur. Uşaq bağçaları da uşaqları məktəbəqədər təhsil prosesinə hazırladığı üçün onların icra hakimiyyətlərinin tabeliyində olması doğru deyildi.

**Sosioloq Lalə Mehralı "Şərq"ə açıqlamasında uşaq bağçalarının Təhsil Nazirliyinin tabeliyinə verilməsinin doğru qərar olduğunu dedi:**

- Yerində verilmiş, lazımlı bir qərardır. Uşaq bağçaları icra hakimiyyətlərinn tabeliyinə verildikdən sonra bu sahədə durğunluq yaşandı. Məsələ texniki təchizatla bağlı deyil, pedaqoqların işə qəbulu, uşaqların tədris-tərbiyə-təlimi ilə bağlıdır. İcra hakimiyyətlərinin belə bir bazası yoxdur. Bir halda ki, uşaq bağçalarına pedaqoji təhsil almış şəxslər işə qəbul edilir, bu Təhsil Nazirliyinin tabeliyində olmalıdır və nazirlik cavabdehlik daşımalıdır. Tabelik bir neçə qurumun əlində olanda nəzarət bölünür. Nəzarət etmək də çətinləşir, tədris, tərbiyə prosesi də axsayır. Ona görə də nəzarət bölünməməli, bir qurumun əlində olmalıdır. Məktəbə şagird göndərən uşaq bağçalarıdır. İbtidai sinfə qəbulda uşaq bağçaları güzgü rolunu oynayır. Uşaq bağçalarında məktəbəqədər qruplar var, bu qrupların fəaliyyətindən çox şey asılıdır. Uşaq bağçalarındakı məktəbəqədər qruplar uşaqları məktəbə düzgün hazırlamalıdır. Uşaqların sağlamlığı, fiziki inkişafı, eyni zamanda məktəbə hazırlıqlı olması uşaq bağçalarından asılıdır. Ümid edirəm, bundan sonra uşaq bağçaları da üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirər.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# "Məlumatın gec təqdim edilməsinin ziyanlı tərəfləri var"

## Qulu Məhərrəmli: "Ən azından bildirmək olardı ki, hərbçilərimizin geri qaytarılması ilə bağlı danışıqlar aparılır"

**Dekabrın 18-də gündüz saatlarında Laçın rayonunun dövlət sərhədi istiqamətində Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yolu azaraq qarşı tərəfə keçib.**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Hüseynov Teymur Ələddin oğlu və əsgər Mustafayev Murad Mikayıl oğlu əlverişsiz hava şəraiti səbəbindən yolu azıb. Aparılmış danışıqlar nəticəsində dekabrın 20-si hərbi qulluqçuların geri qaytarılması təmin olunub. Bu barədə Ermənistan mətbuatı müəyyən spekulyativ xəbərlər paylaşır.

Azərbaycan Müdafiə Nazirliyindən isə mediaya heç bir məlumat verilməyib. Bunun nəticəsində mətbuat da, cəmiyyət də məlumatsız qalıb. Mətbuata məlumatın vaxtında verilməməsi yurnalistlərin etirazına səbəb olub.

**Hadisə barədə mətbuata məlumatın gec verilməsi ilə bağlı "Şərq"ə danışan BDU-nun professoru, tanınmış yurnalist Qulu Məhərrəmli vurğulayıb ki, bəzi qurumların mətbuat xidmətləri işlərini lazımınca görmürlər:** "Əgər hərbçilərimiz yanlışlıqla yollarını azıb əsir götürülürsə, bu barədə Müdafiə Nazirliyindən rəsmi məlumat verilməlidir. İnsanlar belə halların ola biləcəyini anlayışla qarşılayır. Biz də başa düşürük ki, Müdafiə Nazirliyi bunu hərbi sistem üçün arzuolunmaz hesab edir və hərbçilərimizin geri qaytarılmasından sonra məlumat yayır. Lakin məlumatın gec təqdim edilməsinin ziyanlı tərəfləri var. Xüsusilə Ermənistan mediasında bu barədə foto, video, məlumat yayılır, lakin bizim qurumlar isə heç bir məlumat vermirsə, bunun daha çox etiraza səbəb olmağı normaldı. Ən azından bildirmək olardı ki, hərbçilərimizin geri qaytarılması ilə bağlı danışıqlar aparılır. Ümumiyyətlə, qurumların mətbuat xidmətlərindən mediaya vaxtında məlumat ötürülməməsi yurnalistlərin də haqlı narazılığına səbəb olur".

**Xanlar Əlibəy**

# Lirənin dəyəri yüksəlməkdə davam edəcək

## "Türkiyə güclü dövlətdir, çətinliklərin öhdəsindən gələcək"

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin iclasından sonra xalqa müraciət edib.**



Çıxışında iqtisadiyyatdakı son proseslərlə bağlı açıqlamalar verərək əmanətlər üzrə, məzənnə artımı ilə bağlı narahatlıqlarını aradan qaldırmaq istəyən vətəndaşlara yeni maliyyə alternativi təqdim edəcəklərini qeyd edib. Ərdoğanın xalqa müraciətindən sonra Türkiyə lirəsi ABŞ dolları qarşısında dəyər qazanıb. Prezidentin açıqlamasından əvvəl 9,2 faiz artımla 18 lirəyə yaxınlaşmış Dollar/TL məzənnəsi, R.T.Ərdoğanın çıxışından sonra 26 faiz düşərək 13,1932 lirəyədək ucuzlaşıb.

Mövcud durumu "Şərq"ə şərh edən millət vəkili Vahid Əhmədov bildirib ki, lirənin dəyərinin stabilləşməsi üçün mühüm addımlar atılır:

"Türkiyə prezidenti Nazirlər Kabinetinin iclasından sonra xalqa müraciət edib. Prezident Türkiyə lirəsinin ABŞ dolları qarşısında dəyər qazanması üçün mühüm addımlar atır. Prezidentin çıxışında əhaliyə müraciət edərək narahatlığa səbəbin olmadığını bildirib, ziyana düşən vətəndaşlara kompensasiya ödəməyi öz üzərinə götürüb. Ərdoğanın çıxışdan öncəki atdığı müəyyən addımlar nəticəsində lirə dəyər qazandı. Zənnimcə, lirə dəyərini yüksəltməyə davam edəcək. Nəzərə alsaq ki, Türkiyəyə müəyyən təzyiqlər var, lirənin dəyərinin yüksəldilməsi uğrunda aparılan mübarizə yolu çətin olacaq. Türkiyə güclü dövlətdir, Ərdoğan da güclü liderdir. Ərdoğan bunun öhdəsindən gələcək".

**Xanlar Əlibəy**

# "Məktəb direktorlarının seçimində imtahanların keçirilməsi yaxşı haldır"

## Rafiq İsmayılov: "Ancaq biz hardan bilək ki, imtahanla bu vəzifəyə təyin edilən şəxsin korrupsiyaya meyli var, ya yoxdur?"



**Təhsil naziri Emin Əmrullayev bu gün keçirilən brifinqdə təhsil sistemindəki bir sıra problemli mövzulara toxunub. O, məktəb direktorlarının fəaliyyətindən danışarkən diqqətə çatdırıb ki,Təhsil Nazirliyi hər il onlarla direktoru işində yol verdiyi nöqsanlara görə vəzifəsindən uzaqlaşdırır: "Direktorların kim tərəfindən necə təyin edilməsi deyil, təyin olunan şəxsin peşəkarlığı vacibdir.**

Bu gün direktorların təyinatı müsabiqə əsasındadır. Problem müsabiqəni keçənlərin sayının az olmasıdır. Məktəb rəhbərinin mövqeyini də başa düşməliyik. Direktorun həmişə günahkar olmaq ehtimalı böyükdür. Ona görə bacarıqlı müəllim direktor olmaq istəmir".

Nazir hazırda 500-dən artıq direktor vəzifəsinin boş olduğunu söyləyib: "Çalışırıq ki, ora düzgün və müsabiqə əsasında təyinat edək. Biz həddi aşağı sala bilmərik. Amma uzun müddət də yerləri boş saxlaya bilmərik".

Yada salaq ki, ötən günlərdə keçmiş təhsil naziri, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru Misir Mərdanovun məktəb direktorlarının imtahanla işə təyinatı ilə bağlı açıqlama verib. O bildirib ki, imtahanla hər şeyi qiymətləndirməyin mümkün olmadığından, bu, gərəksizdir: "İmtahanla hər hansı məqamda qiymətləndirmə mümkündür, amma hər zaman yox. Məsələn, idarəetmə qabiliyyəti, insanlara münasibət və s. məsələləri imtahanla qiymətləndirmək olmur. Mənə elə gəlir ki, hər bir məktəbin direktorunu cəmiyyət özü seçməlidir. İmtahan verib əla qiymət aldın, amma məktəbdə səni tanımırlarsa, o məktəbə necə rəhbərik edə bilərsən? Məktəb direktoru məktəbin öz içindən seçilməlidir. Məktəbdə işləyən ən nümunəvi, səriştəli müəllim direktor seçilməlidir ki, məktəbi də idarə edə bilsin".

*Maraqlıdır, direktorların işə qəbulunda mövcud imtahan üsulunun ləğv olunması nə dərəcə effektiv ola bilər?*

**Təhsil eksperti, fəlsəfə doktoru Rafiq İsmayılov "Şərq"ə bildirib ki, imtahan müəyyən bir sahədə şəxsin hansısa bacarıqlarını, intellektual keyfiyyətlərini, idarəetmə bacarıqlarını üzə çıxaran prosesdir:** "Bu işdə sadəcə kollektivə güvənmək obyektivlik deyil. Burda da bir subyektivlik ola bilər. Biz hər birimiz Azərbaycan cəmiyyətinə bələdik. Bilirik ki, bir nəfəri hər hansısa kollektivdə rəhbər qoymaq nə deməkdir. Fikrimcə, məktəblərə direktor vəzifəsinə təyinetmədə imtahanların keçirilməsi yaxşı prosesdir. Düzdür, meyarlar düzgün qoyulsa, başqa alternativlər də ola bilər".

**Ekspert hansısa bir təhsil müəssisəsinin idarə edilməsi üçün ora bacarıqlı şəxsin təyin olunmasının mühüm olduğunu vurğulayıb və bu məqamda intellektin, yüksək idarəçilik qabiliyyətinin vacib amillər olduğunu söyləyib:**

"Bütün bunları imtahan prosesində nümayiş etdirmək olar. Lakin bəzi xüsusiyyətlər var ki, heç bir imtahan növü onu aşkara çıxara bilməz. Məsəl üçün, biz hardan bilək ki, imtahanla bu vəzifəyə təyin edilən şəxsin korrupsiyaya meyli var, ya yoxdur? Təbii ki, heç cür".

**R.İsmayılov hesab edir ki, belə imtahanlardan sonra xüsusi bir nəzarət mexanizminin yaradılması hazırda daha effektiv nəticə verə bilər:** "Beləliklə bu vəzifələrə təyin edilən şəxslərin fəaliyyətinə nəzarət edilər, onların fəaliyyəti vaxtaşırı qiymətləndirilər. Təhsil elə bir prosesdir ki, burda qısa zaman ərzində nələrəsə nail olmaq o qədər də asan deyil. Ümid edirəm ki, zamanla bu istiqamətdə də pozitiv nələrəsə nail olunacaq".

**Günəş Mərd**

# Repetitorluq fəaliyyəti getdikcə genişlənir

## Bu da təhsili kasıb zümrə üçün əlçatmaz edir



**Tanınmış jurnalist Xaqani Səfəroğlu öz feysbuk hesabında Azərbaycan təhsilindəki repetitorluqla bağlı tənqidi paylaşım edib. Jurnalist yazıb:**

"Ölkədə təhsil kasıblar üçün əlçatmaz olmağa başlayır. Repetitorluq ölkədə Konstitusiya ilə tələb olunan pulsuz təhsil hüququnu dağıdan probleme çevrilib".

Doğrudan da repetitorluqla məşğul olan müəllimlərin sayı artmaqdadır. Müəllimlər artıq siniflərdə dərs keçmək istəmirlər. Uşaqları evlərinə, hazırlığa dəvət edirlər. Hətta bəzən abituriyentlərə başqa müəllimlə hazırlaşdıqları üçün təzyiq göstərirlər. Belə olduğu halda şagirdlər də məktəbdə keçirilən dərslərə biganə yanaşırlar. Bütün biliyi hazırlıqda öyrənəcəklərini güman edib, arxayınlaşırlar.

**Təhsildəki məlum vəziyyətlə bağlı "Şərq"ə danışan təhsil üzrə ekspert Elçin Əfəndi təəssüflə bildirib ki, repetitorluq fəaliyyəti son 10-12 ildə geniş vüsət alıb:**

"Müəllimləri də qınamaq olmaz.

***Elçin Əfəndi: "Hazırda biz məktəbləri gəzsək, 9-10-11-ci sinif şagirdlərini dərs zamanı otaqda tapmayacağıq"***

Çünki əmək haqlarının azlığı onları əlavə məşğuliyyətə sövq edir. Bu gün aldıqları məvacib onların yaşam şəraitini yaxşılaşdırarsa, təbii ki, hazırlıqla məşğul olmalarının qarşısı alınar. Eyni zamanda orta məktəblərdə təhsil səviyyəsinin çətinliyi aradan qaldırılarsa, şagirdlərə yalnız lazımi biliklər verilərsə, repetitorluğa ehtiyac qalmaz. Çünki şagirdlərə həddən artıq ev tapşırıqları verilir, dərslər tədricən ağırlaşdırılır. Nəticədə də dediyimiz fakt üzə çıxır. Hazırda biz məktəbləri gəzsək, 9-10-11-ci sinif şagirdlərini dərs zamanı otaqda tapmayacağıq.

Məsələn, sinifdə 25-30 şagird varsa, onun yarı hissəsi iştirak etmir. Çünki onlar artıq hazırlıq üçün repetitor yanında, hazırlıq kurslarındadırlar. Lakin məktəblərdə dərslər dolğun şəkildə tədris olunarsa, valideynlər qazandıqlarını başqa istiqamətə xərcləməzlər. Belə halların qarşısının alınması üçün təbii ki, Təhsil Nazirliyi, Təhsil İnstitutu ciddi çalışmalıdır. Eyni zamanda dərsliklərdə müvafiq nöqsanlar aradan qaldırılmalıdır.

Dərsliklərdə yer alan mövzuların çətinlik səviyyəsi endirilməlidir. Həmçinin müəllimlərin konkret olaraq iş saatında davamiyyəti təmin olunmalıdır. Bunlara nəzarət sistemini tətbiq etsək, nəticə əldə edə bilərik. Əks halda proses arealını genişləndirməyə davam edəcək".

**Sücayət Mehti**

# Hərbi forma həmişə uca tutulmalıdır

## Belə reklamlarla şəhidlərin, qazilərin, həm də dövlətin adına xələl gətirirlər



**Sosial şəbəkələrdə reklam formasında yayılan hərbi formalı şəxsin lazer epilyasiya proseduru müzakirələrə səbəb olub.**

Bununla da hərbi geyimi istənilən məkanda daşımaq məsələsi yenidən gündəmə gəlib. Bəziləri sözügedəm formadan sui-istifadə edir və şəxsi məqsədlərini həyata keçirirlər. Qeyd etmək lazımdır ki, hərbi geyimi müqəddəs hesab edən ekspertlər də var. Ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanov da mediaya açıqlamalarından birində "bu cür müqəddəs formanın mahiyyətini və anlamını dərk etməliyik" deyə vurğulayıb.

**Hərbi formanın özəl məqsədlərlə istifadə edilməsi ilə bağlı "Şərq"ə danışan sosioloq Lalə Mehralı isə bildirib ki, belə reklamlarla həm şəhidlərin, həm qazilərin, həm də dövlətin adına xələl gətirirlər:**

"Tutalım, hər hansı mərkəz qaziyə güzəştli və yaxud ödənişsiz xidmət göstərirsə, reklam etməməlidir. 30-35 manat civarında bir proseduru pulsuz, yaxud endirimə salıb, qazinin adından istifadə edib özləri üçün nüfuz qazanırlarsa, qara piardan başqa bir şey deyil.

Məni narahat edən məsələ qazinin həmin prosedura hərbi formada, medalları ilə getməsidir. Adi halda normal geyimdə proseduru etdirə bilərdi. Mən onlara qazi demək istəmirəm, bu, həqiqi qazilərin haqqına girmək olar. Bəzi müharibə iştirakçıları "müharibə" adından yararlanırlar, hərbi formanı əynindən çıxartmırlar. Formanın sayəsində özünə qarşı diqqət, eyni zamanda maddi və mənəvi hörmət gözləyir. Ona görə belə insanların addımları müharibədə can qoymuş qazilərimizə haqsızlıqdır. Həmin xidmət mərkəzi daxil olmaqla bununla bağlı ölçü götürmək lazımdır".

**Aygun Tahir**

# Dövlət Məşğulluq Agentliyi ilə "Azerconnect" şirkəti arasında Anlaşma Memorandumu imzalanıb




**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi ilə İKT bazarında ən böyük işəgötürənlərdən biri olan "Azerconnect" şirkəti arasında Anlaşma Memorandumu imzalanıb.**

Sənədi Dövlət Məşğulluq Agentliyinin İdarə heyətinin sədri Mustafa Abbasbəyli və "Azerconnect" şirkətinin Baş direktoru Emil Məsimov imzalayıb.

Memoranduma əsasən, tərəflər arasında Agentliyin fəaliyyət istiqamətləri və qarşılıqlı maraq kəsb edən layihələr üzrə əməkdaşlıq qurulacaq, əmək bazarının tələblərinə uyğun işsiz və işaxtaran şəxslərin peşəyönümünün, peşə hazırlığının təmin edilməsi, bilik və bacarıqlarının artırılması istiqamətində "Azerconnect" şirkəti ilə əməkdaşlıq ediləcək.

Sənəddə həmçinin, korporativ sosial münasibətlərin inkişafı istiqamətində təkliflərin hazırlanması, "Məşğulluq Marafonu" çərçivəsində "Azerconnect" tərəfindən Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin və müharibədə yaralanmış qazilərin məşğulluğuna dəstəyin verilməsi və müvafiq fəaliyyətin həyata keçirilməsi, birgə innovativ layihələrin, tədbirlərin, forumların həyata keçirilməsi nəzərdə tutulub.

Memorandumda sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün əlavə iş yerləri və sosial müəssisələrin yaradılmasına marağın artırılması üçün Agentlik tərəfindən müxtəlif xarakterli həvəsləndirici tədbirlər, o cümlədən proqram və layihələrin həyata keçirilməsi, aktiv məşğulluq tədbirlərinə cəlb olunan şəxslərin fəaliyyətinin dəstəklənməsi və inkişaf etdirilməsi məqsədilə "Azerconnect" şirkəti tərəfindən əlavə dəstəyin verilməsi, peşə hazırlığına cəlb olunan şəxslərin şirkətdə istehsalat təcrübəsi keçmələri və müvafiq işlə təmin olunmasına şirkət tərəfindən köməklik göstərilməsi öz əksini tapıb.




## Bakıda "PAŞA Holding"in təşkilatçılığı və "Bakcell"in dəstəyi ilə İllik İnnovasiya Sammiti keçirilib

**Dekabr ayının 17-də Bakıda Korporativ İnnovasiya mövzusuna həsr edilmiş illik İnnovasiya Sammiti keçirilib.**

Azərbaycanda ilk dəfə PAŞA Holding tərəfindən təşkil olunmuş sammit Bakcell, PAŞA Bank, PAŞA Həyat, Kapital Bank, PAŞA Sığorta, BP və Caspian Innovation Center şirkətlərinin dəstəyi ilə reallaşıb. Sammitdə Google şirkətinin innovasiyalar üzrə baş eksperti Dr. Frederik G. Pferdt, London Biznes Məktəbinin professoru, təhsilin idarəedilməsi üzrə məsləhətçi Culian Birkinşau (Julian Birkinshaw) və strategiya, inkişaf və transformasiya üzrə ekspert Kaihan Krippendorff kimi məşhur məruzəçilər iştirak edib. Qonaq məruzəçilər innovasiyaların rəqabət üstünlüklərini necə təmin etməsi, daxili korporativ innovasiyaların və gələcəyə hazır düşüncə tərzinin formalaşması ilə bağlı dəyərli fikirlərini bölüşüblər. Sammit çərçivəsində panel müzakirələri təşkil olunub. Burada dövlət qurumlarının nümayəndələri, yerli şirkətlərin rəhbərləri, o cümlədən "Bakcell"in baş icraçı direktoru Rainer Rathgeber korporativ innovasiyaların əhəmiyyəti, bu sahədə qurulan tərəfdaşlıqlar və çətinliklər və innovasiyaların biznesdə tətbiqi təcrübəsini müzakirə edib. Qeyd edək ki, tədbirə yerli və beynəlxalq təşkilatlardan 400-dən çox biznes və sənaye lideri qatılıb.

# "Sona Əzizovanın jestini alqışlayıram"

## Aydınxan Əbilov: "Onun addımı Azərbaycanın sülhpərvər ölkə olduğunu bir daha sübut etdi"



**Fransanın paytaxtı Parisdə keçirilən "Uşaq Avroviziyası - 2021" mahnı müsabiqəsində Azərbaycanı "One of those days" mahnısı ilə Sona Əzizova təmsil edib. Ümumi səslərin sayına görə 151 xal toplayan təmsilçimiz yekunda beşinci yeri tutub.**

Sona Əzizova müsabiqədə birinci olan Ermənistan təmsilçisi Malenanı qucaqlayaraq təbrik edib. Onların bu videosu sosial şəbəkələrdə birmənalı qarşılanmayıb. İfaçı Sona Əzizova tənqid atəşinə tutulub. Hətta bunun müharibədə qazandığımız qələbəyə kölgə saldığını da deyənlər var.

Bu barədə "Şərq"ə danışan Kulturoloq Aydınxan Əbilov bildirib ki, ermənilər də, azərbaycanlılar da düşmənçiliyə son qoymalı və sülh yolunu tutmalıdırlar: "İnsanlar anlamalıdırlar ki, incəsənətin, mədəniyyətin milliyyəti olmur. Bunu anlamayan bəzi varlıqlar sosial şəbəkəyə girib təhqirdən istifadə edirlər. Məsələyə dünyəvi aspektdən baxmaq lazımdır. Azərbaycanı "Uşaq Avroviziyası - 2021" mahnı müsabiqəsində təmsil edən Sona Əzizovanın jestini alqışlayıram. Sona göstərdi ki, incəsənətdə düşmənçilik yoxdur. Sonanın jesti Azərbaycanın sülhpərvər ölkə olduğunu bir daha sübut etdi. Bu jest dünyada alqışla qarşılandı. Lakin Sonaya ailələrindən bixəbər şəxslər sosial şəbəkədə ağızlarına gələni yazırlar. Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizlik Xidmətinin sosial şəbəkələrdə insanları təhqir edənlər barəsində tədbir görməyi zəruri hal alıb. Onlar cərimələnsələr, bu addımı bir daha atmazlar.

Biz ermənilərdən böyük millətik. Həmişə böyüklər kiçik olanlara humanizm göstərirlər. Artıq xalq diplomatiyası aparmalıyıq. Estetik baxımdan Qarabağ erməniləri ilə inteqrasiyaya ehtiyacımız var. Azərbaycan Respublikasının qanunlarına əməl etməklə ermənilər də bizimlə birgə Qarabağda yaşaya bilər. Sülhpərvər metodlardan istifadə etmək lazımdır. Erməni aktyorlar, məşhurlar vaxtilə belə üsullardan istifadə ediblər".

**Xanlar Əlibəy**

# "Omicron" "Delta" qədər öldürücü deyil

## Bu pandemiyanın zəifləməsi istiqamətində ümid yaradır



**Tibb üzrə elmlər doktoru, professor Adil Qeybulla "Şərq"ə bildirib ki, "SARS 2" virusu "SARS-Cov-19" xəstəliyini törədib və pandemiya yaradıb:**

"Çünki bu, RNT genomlu virusdur. Ona görə də mutasiya qabiliyyətinə malikdir. Nə qədər ki, bütün dünyada kollektiv immunitet formalaşmayıb, kütləvi vaksinasiya tətbiq olunmur, mutasiya davam edir. Bu mutasiya variantları o ölkələrdə gedir ki, orada vaksinasiya zəifdir, karantin qaydaları gözlənilmir. Həmin ölkələrdən digərlərinə yayılır. "Omicron" ştammı xüsusi bir özəlliyi ilə digərlərindən fərqlənmir. Zəifləmə tendensiyası var. Düzdür, bu ştamma yoluxma nəticələri hələ yaxın vaxtlarda bilinəcək. Çünki yoluxmuş şəxslərdə əlamətlər və nəticələri hələ aydın deyil".

**Professor alimlərin gəldiyi qənaətdən də söz açıb:** "Bu virus "Delta" ştammı qədər öldürücü və yoluxucu olmayacaq. "Omicron"un "Delta"dan zəif olması, pandemiyanın süstləşməsi istiqamətinə ümid yaradır. Boğaz və baş ağrıları, diareya, mədə-bağırsaq pozuntuları daha çox fəsad törətdiyi xəstəliklərdir. Ona görə də karantin qaydalarına riayət etmək mütləqdir".

**Cəmilə Əzim**

**Elan**

Məmmədova Reyhan Hüşəm qızına məxsus Masazır qəsəbəsi, Bağçalı evlər yaşayış kompleksində 22B nömrəli binada, blok 4, mərtəbə 6-da olan 77 MA saylı mənzilin çıxarış (kupça) sənədi itdiyi üçün etibarsız sayılır.

**"Bakı Hərrac Mərkəzi" MMC**

Lot 657/21. "Shacman" markalı, 56 BE 746 dövlət qeydiyyat nişanlı avtomobil. Təkrar hərracdakı satış qiyməti 4050 manat. Əmlakın 20 dekabr 2021-ci il tarixində keçirilən təkrar hərracı baş tutmamışdır. Növbəti təkrar hərrac 27 dekabr 2021-ci il tarixində saat 11:00-da keçiriləcəkdir. Satış qiymətinin 10 faiz həcmində beh hərrac təşkilatına ödənilməlidir. Alış qiyməti 7 təqvim günü ərzində sifarişçi icra şöbəsinin hesabına ödənilməlidir. Açıq hərracda iştirak etmək üçün lazımi sənədlər: F/Ş şəxsiyyət vəsiqəsi, H/Ş təsis sənədləri. Ünvan: Bakı şəh., Yasamal ray, məhəllə 593, Ə.Salamzadə küç. 2C (3-cü mərtəbə). Tel: 055 206-66-67

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2736



# 250 iti öldürdü

Meymun balasının qisasını aldı

**Hindistanın Maharaştra bölgəsində iki kənddə qan donduran hadisə baş verib. Körpə meymunun itlər tərəfindən öldürülməsi onlara baha başa gəlib.**

Bir bala meymunun yerinə 250 iti öldürüblər. İtləri hündür binalardan və ağaclardan ataraq öldürməkdə ittiham olunan iki meymunu qəfəsə salıblar.

Milli.Az xarici mediaya istinadən xəbər verir ki, meymunların hələ də aqressiv olduqları öyrənilib. Baş verən son hadisələrdən sonra bildirilib ki, Lavul kəndində demək olar ki, it qalmayıb.

Xalqın təşviş içində olduğu və bölgə meşə təsərrüfatı qruplarının itlərin ölümünə səbəb olan iki meymunu qəfəsə saldığı öyrənilib. Qeyd edilib ki, meymunlar bir müddət sonra sərbəst buraxılaraq Naqpur şəhərində meşəyə salınacaq.

# Dünyanın ən bahalı futbolçusuna özündən böyük tort hədiyyə edildi



**Kilian Mbappe 23 yaşını qeyd edib. Lent.az xəbər verir ki, PSJ-nin forvardı "Instagram"da ad günü mərasimindən foto paylaşıb. Doğum günü tortunun futbolçunun özündən yüksək olduğu ortaya çıxıb.**

Qeyd edək ki, "Transfermarkt"ın analitikləri Mbappeni dünyanın ən bahalı futbolçusu adlandırırlar. Onun dəyəri 160 milyon avro qiymətləndirilir.

Mbappenin PSJ ilə müqaviləsi 2021/2022-ci il mövsümünün sonunda başa çatır və Kilian yenilənmək barədə hələ qərar verməyib. Onun "Real"a keçməsi istisna olunmur.

Bir müddət əvvəl Mbappe ulduz komanda yoldaşı Messinin rekordunu qırıb. Kilian Çempionlar Liqasında 30 qol vuran ən gənc futbolçu olub.

# "Hörümçək adam: Geriyə yol yoxdur"

Filmi ABŞ kinoteatrlarında 260 milyon dollar gəlir əldə edib




**"Hörümçək adam: Geriyə yol yoxdur" filmi ötən həftə sonu ABŞ kinoteatrlarında 260 milyon dollar gəlir əldə edib.**

**Azərtac TASS agentliyinə istinadla xəbər verir ki, bu barədə "The Hollywood Reporter" jurnalı məlumat yayıb.**

**Bildirilir ki, filmin əldə etdiyi uğur koronavirus pandemiyasından əvvəl olduğu kimi tamaşaçıların kinoteatrlara qayıtması ilə bağlıdır. Jurnal qeyd edib ki, ilk həftələrdə filmin dünya üzrə kassa gəliri 600,8 milyon dollar olub. Filmdə Tom Holland, Benedikt Kamberbetç, Marisa Tomei və başqaları çəkilib.**

# Atası Britni Spirsdən yenə pul istəyir



**Müğənni Britni Spirsin atası Ceymi Spirs qəyyum vəzifəsindən uzaqlaşdırılmasından 1 ay belə keçməmiş qızına qarşı növbəti vəsatət qaldırıb.**

**Axşam.az xəbər verir ki, Ceymi ifaçıdan vəkillərinin xərclərini ödəməyə davam etməsini tələb edib. Onun fikrincə, bu, Britninin özünün də maraqlarına uyğundur.**

**İfaçının vəkili Metyu Rozenqart Ceyminin hərəkətinə münasibət bildirərək onun tələbini "biabırçı" adlandırıb:**

**"Cənab Ceymi Britnidən qəyyum kimi milyonlarla dollar alıb, vəkillərinə daha milyonlarla pul ödəyib. Və bütün bunlar Britninin əməyi və zəhmətlə qazandığı pul sayəsindədir. Qəyyumluğa xitam verilib və o, rüsvayçılıqla vəzifəsindən uzaqlaşdırılıb. Yaranmış şəraitdə onun tələbi hüquqi cəhətdən əsassız olmaqla yanaşı, sadəcə olaraq iyrəncdir. Bu, qızını sevən atanın edəcəyi hərəkət deyil".**

# İki qadına təcavüz etdiyi üçün serialdan qovuldu



**"The Equalizer" serialında rol alan aktyor Kris Not haqqında çıxan təcavüz iddialarının ardından ekran işindən qovulub.**

**Axşam.az xəbər verir ki, iki qadına cinsi zorakılıq etməsi aktyorun işinə də ciddi zərbə vurub. O, təqribən 12 milyon dollar itirib.**

**Ekran işinin yayımlandığı "CBS" telekanalının açıqlamasında "Kris Not "The Equalizer"in yeni bölümlərində görünməyəcək" sözləri yer alıb.**

***Qeyd edək ki, 67 yaşlı Kris serialda bu ildən rol almağa başlayıb. O, "Zoe" və "Lily" ləqəbli qadınlara təcavüzdə günahlandırılır.***





# Şəhidin kədərli hekayəsi...

Əlləri donanda itin nəfəsi ilə isinib

Mələhət Rzayeva



**Türkiyə Silahlı Qüvvələrinin İraqın şimalında həyata keçirdiyi "Pəncə-Şimşək" əməliyyatında Pırtık adlı axtarış köpəyi ilə iştirak edən veterinar uzman çavuş Hüsaməddin Gökçe şəhid oldu. Ondan geriyə qalan avtomat darağından çıxan 2 saç teli və köpəyi Pırtıkdır.**

Şəhidin saç telinə nişanlısı İlayda, köpəyi Pırtığa isə əsgər dostları sahib çıxıb. Hazırda Pırtık mehmetciklə bir sırada vəzifəsini yerinə yetirir. Şəhidin nişanlısı İlayda Pırtıkla bağlı təsirli epizod danışıb. "Şərq" "Sabah.com.tr"yə istinadən bildirir ki, Hüsaməddin şəhid olduğu zaman köpəyi də yanındaymış. Bunu Hüsaməddinin əsgər yoldaşları ona deyib: "Hüsaməddin Pırtığı çox sevirdi. Şəhid düşdüyü



gecə bölgədə hava yağmurlu idi. Silah səsləri də gəlirdi. Mənimlə danışırdı və dedi ki, əlləri donub, Pırtığın nəfəsiylə isinir. Dedi ki, Pırtık silah səsindən qorxmur, mərmiləri heçə sayır. Hər dəfə də "Vətəni qorumaq pulla, parayla olmaz. Vətən sevgisi lazım, ürək lazım", deyərdi. Dediyi kimi də oldu. Ürəyi Vətən sevgisi ilə al qana boyandı". Hüsaməddin şəhidlik zirvəsinə yüksəldiyi gecə yanında olan Pırtık da yaralanıb. Əsgər yoldaşları Pırtığı bir neçə gün sonra ac, susuz, yaralı halda tapıblar. Pırtık gözləri ilə hər yerdə Hüsaməddini axtarırmış. Şəklini göstərəndə hürüb, səs salırmış. Hüsaməddinin can dostlarına - qəhrəman mehmetciyə bir müddət sonra isinişib, sağalıb, yenə mehmetciyə kömək edir; mina axtarır, terrorçuları yaxalayır.

# Türk mütəxəssisin 7 məsləhəti

Boğaz ağrısı, öskürəyə qarşı çox təsirlidir



**Qış gəldi. Boğaz ağrısı, öskürək, əzginlik də artdı. Onsuz da əhali koronavirus və qripəbənzər xəstəliklərdən əziyyət çəkir. Qışın gəlişi, havaların daha da soyuması xəstələnmə təhlükəsini artırır. Mütəxəssislər adətən soyuq aylarda boğaz ağrısı, öskürəklə "start" götürən yuxarı tənəffüs yolları xəstəlikləri - respirator xəstəliklərə qarşı təsirli vasitələr məsləhət görür.**

Bu vasitələr yuxarı tənəffüs yollarındakı bakteriya və virusları "beşikdəcə boğmağa" kömək edəcək. "Şərq" "Milliyet.com"a istinadən fitoterapiya mütəxəssisi doktor Buğra Buyrukçunun 7 məsləhətini oxuculara təqdim edir:

**1**. Üyüdülmüş qara istiotla ballı çay. Bir çay qaşığı yenicə üyüdülmüş qara istiotla 2 yemək qaşığı balı bir stəkanda qarışdırın. Kənarda saxladığınız isti suyu stəkandakı qarışığın üzərinə əlavə edin. 10 dəqiqə üzərini örtüb dəm almasını gözləyin. Sonra suyu süzüb qarışığı qəbul edin. Təbii antibiotikdir. Bəlğəmi rahat şəkildə dışarı çıxara biləcəksiniz.

**2**. Limon-qara istiot-duz üçlüyü.

Bir ədəd limonu iki hissəyə bölün, üzərinə qara istiot və duz səpin. Duzlu, istiotlu limon öskürəyi və boğaz ağrısını qısa zamanda aradan qaldıracaq.

**3**. Ballı kəklikotu çayı. Kəklikotu öskürəyə qarşı təsirli bitkidir. Yuxarı tənəffüs yolları xəstəlikləri və bronxitə qarşı istifadə edilir. Kəklikotundan dəmlənən çaya, amma isti yox, ılıq halda, bal əlavə etsəniz, həm immuniteti gücləndirəcək, həm də öskürəyə qarşı kömək edəcək.

**4**. Zəncəfilli ballı çay. 3 halqa təzə zəncəfil, 8 ədəd darçın çubuğu, 8 ədəd mixək, 1 ədəd limon, 1,5 litr su, 1 qaşıq bal. Bal xaric digər bütün ərzaqlar qaynadılır, sonra bu qarışığa bal əlavə edilir. Orqanizmi gücləndirən qarışıqdır.

**5**. Soğan suyu. 1 ədəd soğanı 4 hissəyə bölüb 1 stəkan su ilə qaynadın. 5 dəqiqə qaynadıqdan sonra ocağı söndürüb soyumasını gözləyin. İlıq olduqda suyu süzün. Süzülmüş suya 1 çay qaşığı bal əlavə edib için.

**6**. Qara turp. Qara turpun içini oyub, oyulmuş yerə bal tökün, turpu bir stəkana, turpun ölçüsündə olan qabın üzərinə yerləşdirin. Balın şirəsi turpun





suyu ilə qarışıb kənarlardan qabın içinə süzülməyə başlayacaq. Bu qarışıq boğaz ağrısı, öskürək, bronxlarn müalicəsində əvəzsiz dərmandır. Qarışıqdan hər gün 5-10 çay qaşığı qəbul edə bilərsiniz.

**7**. Sarımsaq. Bir stəkan qaynar suya 1 diş sarımsaq, 2 ədəd çubuq darçın əlavə edin. 5 dəqiqə dəmlədikdən sonra ılıq halda istifadə edə bilərsiniz.

*Boğaz ağrısına qarşı da bir çimdik istiotu suda qarışdırıb boğazı qarqara etmək olar. Eləcə də yarım qaşıq karbonat və duzu yarım stəkan suda qarışdırıb, ya da 1 stəkan suya 1 qaşıq duz əlavə edib qarqara etmək xeyirlidir. Eyni üsulla 2 qaşıq alma sirkəsini də ılıq suya qarışdırıb boğazı qarqara etmək olar. Bunlar boğazdakı bakteriyaları məhv edir.*

**Mələhət**

# Saleh xanımı ilə fotosunu paylaşdı



**Aparıcı Saleh Bağırov ailəsi ilə fotosunu yayımlayıb.**

Aparıcı evliliklərinin 6 ilinin tamam olduğunu vurğulayıb. Şəkildə Salehin xanımı, qızı və oğlu yer alıblar.

Aparıcı fotoya "Beləcə, toyumuzun 6 ili tamam oldu. Arzum, balalarımızı sağlam və xoşbəxt görməyimizdir. Əl ələ, qəlb qəlbə, üzü mənalı yeni illərə..." sözlərini qeyd edib.

# "Gəlin Borçalıdandır"

Nazilə Nadir Qafarzadənin oğlunun toyundan danışdı



**Xəbər verdiyimiz kimi, müğənni Nadir Qafarzadənin oğlu Loğmanın toy mərasimi baş tutub.**

"Şərq" xəbər verir ki, məclisə şou nümayəndələrindən olan şairə Nazilə Səfərli də qatılıb. Toyda qonaq olan şairə instaqram hesabında fotosunu paylaşıb. Açıqlama qismində qeyd edib: "Allah xoşbəxt etsin. Nadirlə qohum olduq. Zarafat edirəm. Gəlin Borçalıdandır. Gör, nə gəlin olacaq. Qoçaq, ağıllı, yanımcıl, yığımcıl".

**Aygun Tahir**

# Vəziyyəti çox ağırdır

Xalq artistinin oğlunun beynində şiş aşkarlanıb



**Mərhum Xalq artisti Eldəniz Zeynalovun oğlu Məmmədin beynində şiş aşkarlanıb.**

"Elgizlə izlə" verilişi Məmmədin evində çəkiliş aparsa da o, danışa bilmədiyi üçün sualları cavablandırmayıb.

"Onkoloji xəstəxanaya gedəcəkdik. Hələ vaxt var idi deyə, qab yuyurdum. O, da səhər yeməyi yeyirdi. Bir də gördüm səs gəldi, yıxıldı. Güclə qaldırıb xəstəxanaya apardıq. O zaman beynindəki şiş təsdiqləndi. Vəziyyəti çox ağırdır" - deyə, onun həyat yoldaşı bildirib.

*Qeyd edək ki, M.Zeynalov ağ ciyər xərçəngindən də əziyyət çəkir. O, eyni zamanda 6 ildir dializə gedir.*